# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 89 (3413) Cümə axşamı / 9-15 dekabr 2021-ci il Qiymәti 40 qәpik


# Mərkəz Ağdam olacaq

***Ölkədə yeni idarəetmə modelinə keçid məsələsi yenidən gündəmə gəlib. Məsələ xüsusilə 14 iqtisadi zonanın yaradılması və Qarabağ İqtisadi Zonasına Prezidentin xüsusi nümayəndəsinin təyinatından sonra daha çox aktuallaşıb. Yaxın zamanlarda ölkədə yeni idarəetmə modelinə keçid, bütün icra hakimiyyətlərinin ləğvi və icra başçılarının azad olunması, əvəzində 14 iqtisadi rayon üzrə 14 regional icra başçısının təyin ediləcəyi proqnozlaşdırılır. Əslində, vəziyyət nədir, iqtisadi zonalar üzrə Prezidentin nümayəndəsinin təyinatı hansı islahatların başlanğıcıdır?***



## Qarabağ İqtisadi Rayonunda yeni idarəetmə modeli

“

*Son bir neçə ildə icra başçılarının ictimai nüfuzu aşağı düşüb*

**■ Ağdam Rayon İcra Hakimiyyəti başçısının birinci müavini olmuş, hazırda Ağdam YAP təşkilatında aparat rəhbəri olan Zülfü Qasımov məlum proseslərlə bağlı maraqlı nüanslara diqqət çəkib.**

Z.Qasımov icra hakimiyyətlərinin ləğv olunacağını böyük ehtimala mümkün sayıb. O, bunu son vaxtlar icra hakimiyyətləri ilə bağlı yayılan neqativlər və bu istiqamətdə verilən şərhlərə istinadən deyib.

“Son zamanlar icra hakimiyyətlərində korrupsiya və rüşvətxorluq hallarının üzə çıxdığı deyilir. Məlumdur ki, icra hakimlərinin bir çoxu həbs edilib və bir çoxunun özünü doğrultmadığı haqqında danışılır”. Z.Qasımov hesab edir ki, belə bir vəziyyətdə Emin Hüseynovun Qarabağ iqtisadi zonasında Prezidentin xüsusi nümayəndəsinin təyin olunmasının yeniliyə aparacağına şübhə etmir.

“Emin Hüseynov Ağdama nümayəndə təyin olunandan sonra burada xeyli iş gördü. Onun əlaqələri genişdir və Qarabağ regionunda nəzarətin ona verilməsi öz müsbət nəticəsini verəcək. Şuşa ona görə bura daxil deyil ki, Şuşaya artıq nümayəndə təyin olunub”.

Axırıncı dəfə Ağdama 20 gün əvvəl getdiyini deyən Z.Qasımov rayonu yaxşı tanıyan, əksər proseslərdə iştirak edən bir şəxs kimi öz təcrübələrini əsirgəməditini deyib. O bildirib ki, hazırda Ağdamda böyük bir mərkəz qurulur və orda ofislərin mebelləri quraşdırılır.

“Sənaye Parkında kimlər işləyəcəksə, hazırda onlar üçün şərait yaradılır- artezan qurulur, vaqonlardan ofislər düzəldilir. Əgər əvvəl 33 müəssisə və 333 iş yerinin olacağı deyirdilərsə, bu yaxınlarda qeyd olundu ki, təkcə 3 müəssisədə 110 nəfər işləyəcək. Sənaye Parkında 7-8 min adam işləyəcək. Sənaye Parkında heç bir tikinti işinə başlamayıblar. Əsasən tikinti yollarda aparılır. Orda işçilər üçün kürsülü 4 yaşayış evi tikilib. Qeyd etdiyim kimi əsas iş Qərərgahın nümayəndəliyinin yarandığı yerdə gedir”.

“

*İndiki zamanda ən böyük məsələ adamlarla işin düzgün qurulmasıdır*

Z.Qasımov deyir ki, torpağın canlanması, bərpası yönündə işlər gedir. Məsələn, Dağüstü Parkda böyük zeytun bağı salınıb. 125 hektar parkda ağaclar əkilib. Bundan başqa Sənaye Parkında yeniş yaşıllıqlar salınıb. Z.Qasımov hesab edir ki, İndiki zamanda ən böyük məsələ adamlarla işin düzgün qurulmasıdır.

“Bilirsiniz ki, həftədə 2 dəfə Ağdamın köhnə adamları ora səfər edirlər. Həm onları, həm də xaricdən gələn adamları qarşılamaq lazımdır. Emin Hüseynovun üstünlüyü həm də odur ki, ingilis, fransız, rus, türk Azərbaycan dillərini gözəl bilir. Beynəlxalq əlaqələri yaxşıdır və xarici şirkətlərlə əməkdaşlıqlar qurur, 12 xarici şirkətlə müqavilə bağlanıldığı deyilir”. Z.Qasımov bildirir ki, Qarabağ İqtisadi Zonasının mərkəzi ofisi Ağdamda qurulur. Qarabağ İqtisadi rayonu Ağdamdan idarə olunacaq. Yeni nümayəndəliyin əsasnaməsi ilə tanış olmadığını deyən Z.Qasımov xüsusi nümayəndəliyin hələlik işğadan azad olunmuş rayonlar üzrə təyin olunduğunu deyib. Ağdam rayonunun bir tərəfinə Prezidentin nümayəndəsi qarışmır, digər tərəfinə isə icra başçısı. Orada aparılan hər hansı iş Prezidentin nümayəndəsinin razılığı olmadan mümkün deyildir. “Xüsusi nümayəndəlik Ağdam camaatı ilə çox yaxşı əlaqələr qurur”.

▸▸ Səh. 2



ANIM

# “Heydər Əliyevə sui-qəsd cəhdinin şahidi oldum...”



**Cahangir Hüseynov,** sabiq deputat, hüquq elmləri üzrə fəlsəfə doktoru

***12 dekabr - Heydər Əliyevin anım günüdür. 1990-cı illərin əvvəlində Heydər Əliyevin hakimiyyətə qayıdışı, eləcə də Yeni Azərbaycan Partiyasının yaranmasında böyük xidmətləri olmuş Azərbaycan parlamentinin sabiq deputatı, uzun müddət müxtəlif bölgələrdə polis rəisi kimi çalışmış hüquq elmləri üzrə fəlsəfə doktoru Cahangir Hüseynov hafta.az-a müsahibəsində mərhum eks-prezident barədəki xatirələrindən bəhs edib.***

*Onunla ilk dəfə 12 yaşımda görüşmüşəm...*

▸▸ Səh. 3

BİZİM SƏFİR



**Alfredo Nieves Portuondo,** Kubanın ölkəmizdəki səfiri

“

■ Kuba haqqında və ayrıca, Azərbaycanla əlaqələrə dair məlumat almaq üçün Kuba Respublikasının Xarici Ticarət və Xarici İnvestisiyalar Nazirliyinin www.inviertaencuba.mincex.gob.cu ünvanında çox cəlbedici, interaktiv veb platforması var...

■ Adada investisiya imkanları hər iki xalq üçün çox sərfəli ola bilər...

■ Kuba investisiya üçün cəlbedici struktura və 30 ildən artıq təcrübəyə malikdir...

▸▸ Səh. 4

GÜNÜN FOTOSU...



Zəngəzur dəhlizinin tikintisi sürətlə davam etdirilir...

GÜNÜN SİTATI

“

*Beynəlxalq Ədalət Məhkəməsində verilən qərarlarla bağlı 3 hakimdən ibarət komitə yaradılıb. Qərarlar icra edilmədiyi təqdirdə bu məsələyə baxılacaq*

”



**Elnur Məmmədov,** xarici işlər nazirinin müavini

KARİKATURA



Müharibənin izləri...

“

**Azərbaycan Prezidenti öz işini ustalıqla yerinə yetirir**

**Barux Leviev,** İsrailli ictimai xadim, “Yerusəlimin əli” təşkilatının rəhbəri

Kim nə deyir desin, seçimi Azərbaycan dövləti və xalqı özü etməlidir.

▸▸ Səh. 2

STATİSTİKA



**■ Hazırda qeydiyyatda olan narkotik istifadəçilərinin sayı 33 788 nəfərdir.**

Bu, 2020-ci ilin sonuna olan statistikadır. Bu ilin statistikası gələn ilin yanvar ayında olacaq. Azərbaycanda 65 yaşdan yuxarı 207 nəfər narkotik istifadəçisi qeydiyyatdadır. 15-17 yaşlı narkotik istifadəçilərinin sayı statistikada 9 nəfər olsa da, bu, tam statistikanı əks etdirmir.



▸▸ Səh. 6

# Pensiyaya kimlər daha tez çıxa bilər...

**XƏBƏR LENTİ**

## Ərdoğandan İsraillə münasibətlər barədə açıqlama



**"Xarici işlər nazirimiz, kəşfiyyat Birləşmiş Ərəb Əmirlikləri ilə münasibətlərimizdə fəal rol oynayacaqlar. Niyə belə bir proses İsraillə bağlı da olmasın?"**

Hafta.az xəbər verir ki, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İsrail-Türkiyə münasibətləri barədə danışarkən deyib. Türkiyə Prezidenti keçmişdə İsrail ilə danışıqlarının olduğunu bildirib: "Bu məqamda İsrailin bölgədə Fələstin siyasəti üzərində daha həssas davranması lazımdır. İsrail Qüds və Məscidül-Əqsa mövzusunda həssas olmalıdır. Buradakı həssaslıqları görsək, biz də əlimizdən gələni edər, addımlarımızı atarıq".

## Üçtərəfli bəyanatların icrası müzakirə edilib

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Türkiyənin xarici işlər naziri Mövlüd Çavuşoğlu ilə telefon danışığı baş tutub.**



Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən hafta.az-a verilən xəbərə görə, nazirlər bölgədə mövcud olan son vəziyyət, o cümlədən üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər. Bölgə ölkələrinin iştirakı ilə "3+3" formatında əməkdaşlıq platformasının həyata keçirilməsi üzrə fikir mübadiləsi aparılıb.

Nazirlər, həmçinin İslam Əməkdaşlıq Təşkilatının (İƏT) xarici işlər nazirlərinin Pakistanda keçirilməsi nəzərdə tutulan növbədənkənar görüşü ilə bağlı fikir mübadiləsi aparıblar. Telefon danışığı zamanı tərəflər, qarşılılıq maraq doğuran digər məsələlər də müzakirə edilib.

## Hərbi Qənimətlər Parkı tarixlə bağlıdır



**"Ermənistan Beynəlxalq Ədalət Məhkəməsindən öncə də digər beynəlxalq təşkilatlarda Hərbi Qənimətlər Parkı ilə bağlı məsələni qaldırmışdı".**

Bunu Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov ötən gün Beynəlxalq Ədalət Məhkəməsinin müvəqqəti tədbirlərinə dair qərarı ilə bağlı mətbuat brifinqində deyib.

Nazir müavini bildirib ki, bu, Azərbaycan üçün yeni məsələ olmayıb: "Ermənistan tərəfi bununla bağlı müxtəlif dövlətlərə də müraciət etmişdi. Bəzi hallarda ermənipərəst qüvvələrin Ermənistanın bu mövqeyinə dəstəyi öz əksini tapıb.

Ancaq burada Ermənistan xalqına qarşı hər hansı etnik nifrətdən söhbət gedə bilməz. Bu park tarixlə bağlıdır. 30 il işğal altında qalmış ərazilərdə, Vətən müharibəsində Azərbaycana qarşı istifadə edilən silahlar, nümunələr bu parkda saxlanılır. Hətta Ermənistanın ballistik raketlərdən istifadə etməsi ilə bağlı sübutlar da bu parkda nümayiş olunur. Xaricdən gələn siyasi rəsmilər, jurnalistlərə bu faktlar göstərilir. Biz məhkəmədə də bəyan etdik ki, bu parkın erməni xalqına qarşı etnik nifrətlə heç bir əlaqəsi yoxdur. Ardıcıl olaraq məhkəmədə də göstərdik ki, məhkəmədə bu mövzu ilə bağlı qərar əldə etmək Ermənistan üçün siyasi xal qazanmaq üçün bir addımdır. Siyasi nöqteyi-nəzərdən bu parkın bağlanması Ermənistan üçün çox əhəmiyyətli idi. Amma məhkəmənin bu mövzuda ədalətli yanaşması bizi sevindirdi".

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb
(lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır,
səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Azərbaycan Prezidenti öz işini ustalıqla yerinə yetirir

**Gündəm**

İsrailli ictimai xadim, "Yerusəlimin əli" təşkilatının rəhbəri, lobbiçilik fəaliyyəti göstərən Barux Levievlə hafta.az-da söhbətimizdə də çalışdıq ki, ölkələrimiz və xalqlarımız arasında əlaqələrə aydınlıq gətirək, nə edirik, nə etməliyik suallarına cavab tapaq. Tapdıqmı, gəlin müsahibəyə birlikdə nəzər salaq:

- Mən əslən Qafqazdanam - Mahaçqalada doğulmuşam, nənəm isə azərbaycanlıdır. Soykökü Azərbaycandan olan bir yəhudi kimi, qardaş xalqımızın bütün nailiyyətləri və qələbələri ilə fəxr edirəm. İsrailin yerli xalqının Azərbaycanda baş verən hər şeyi necə izlədiyi və ölkə rəhbərliyinin mövqeyi də aydındır: dostluq və qardaşlıq münasibətlərini gizlətmək olmaz...

***- Ölkənizdə Azərbaycanı necə tanıyırlar?***

- İsraillilər Azərbaycanı müasir, demokratik və tolerant dövlət kimi görürlər. Bilirlər ki, Azərbaycan dövlətinin başında ağıllı və müdrik prezident dayanır. Həmçinin, Azərbaycana turist kimi gələnlərin çoxu həm ölkənin özü, həm də xalqı haqqında çox xoş xatirələrlə geri qayıdırlar və bu məlumat kiçik ölkəmizdə çox sürətlə yayılır. Qarabağda aparılımış məlum hərbi əməliyyatlardan sonra Azərbaycan haqqında daha çox şeylər deyilməyə başladı və bu da Azərbaycan əsilli mühacirlərin diasporunun, fəallarının və ictimai xadimlərinin sayəsində baş verib. Ölkə rəhbərliyinə gəlincə, hesab edirəm ki, burada hərbi, iqtisadi və sair maraqlar əsas rollardan birini oynayır. İsrail, xalqın hökumətə çox böyük təsir imkanı olan demokratik dövlət olduğu üçün, rəhbərliyimiz xalqın birbaşa göstərişlərini dinləməli və bəzən onlara əməl etməyə borcludur. Burada qeyd edə bilərəm ki, Qarabağda hərbi münaqişədən bir qədər əvvəl İsraildəki solçu partiyalar erməni xalqının soyqırımını tanıyan qanun qəbul etməyə çalışıblar. Amma komandamız çevik reaksiya verərək bu prosesin qarşısını ala bildi. Bizim reaksiyamız ildırım kimi sürətli və sərt oldu.

***- Hər zaman İsrail xalqı və hökuməti, hətta xaricdəki yəhudi lobbiləri Azərbaycana dəstək verdi. Sizcə, bu dəstək gələcəkdə davam edəcəkmi? Maraqlıdır, dünyanın hər yerində Azərbaycan və yəhudi diaspor təşkilatları birlikdə hərəkət edə bilərlərmi? Məsələn, Azərbaycan və Türkiyə diasporları artıq bunu edir...***

- Əgər sizinlə bizim kimi, insanlar dostluğu möhkəmləndirməyə, əlaqələri inkişaf etdirməyə və bütün bunları sosial şəbəkələr və mətbuat vasitəsilə yaymağa davam edərsə, mütləq dəstək göstəriləcək. Bu müstəvidə inkişafa heç bir məhdudiyyət yoxdur.

Ölkələrimiz çox sıx əlaqələrə malik olsalar da, məncə, biz bu əlaqələrdən tam istifadə etmirik. Müxtəlif təşəbbüslər var ki, daha çox təbliğ edilməlidir. Bura həm kommersiya, həm də ictimai xarakterli planlar daxildir. Bilməliyik ki, Bakı və Qüdsdən başqa da çox sayda şəhər və rayonlar var. Hamı üçün əlverişli şərait yaratmaq lazımdır. Mümkün qədər az bürokratik maneələr qoymağa çalışmalıyıq. Birgə fəaliyyət göstərmək üçün xalqlarımız arasında, xüsusən də gənclər arasında qarşılıqlı maraqlar olmalıdır.

***- Son bir ildir azad olunmuş torpaqlarda tikinti-quruculuq işləri aparan***

**İsrail hər zaman Azərbaycana dəstək verib, dövlətimizin müdafiə qabiliyyətinin artmasında mühüm rol oynayıb, lobbiçilik dəstəyi verib və sair. Zaman-zaman buna görə bəzi qonşu ölkələrin qınağına da tuş gəlmişik. Nəhayət, ordumuz 20 ilə yaxındır Ermənistanın işğalında qalmış Vətən torpaqlarını azad etdi və bu gün həmin ərazilərdə tikinti-quruculuq işləri gedir. Təbii olaraq, yenə də əvvəlki dostlar bu prosesdə Azərbaycana hərtərəfli dəstək verirlər. O cümlədən, İsrail şirkətləri hazırda azad olunmuş torpaqların yenidənqurmasında iştirak edirlər.**

"

*Kim nə deyir desin, seçimi Azərbaycan dövləti və xalqı özü etməlidir*

***Azərbaycanda, eləcə də Qafqazda daha sabit və rahat ab-hava var. Amma təəssüf ki, Ermənistan birmənalı yanaşmır sülhə. Bunu sərhədlərin müəyyən edilməsində də görürük. Zəngəzur dəhlizinə münasibətdə isə onlar daha radikal davranırlar. Ermənistan niyə sülhə gəlmək istəmir, axı onlardan milli suverenliklərinə zidd heç nə tələb olunmur...***

- İki rəqib tərəfin dialoq aparmağa başlaması, bir-birinə yaxınlaşması üçün yoldakı hər cür maneələrdən - fiziki, emosional, psixoloji - xilas olması lazımdır. İnanmıram ki, qanlı müharibədən sonra dərhal bir-birinə aşiq olmaq mümkün olsun. Mən bunu öz ölkəmizdə - İsraildə də görürəm. Sülh prosesi vaxt tələb edir, yenidən dostluq və mehriban qonşuluq münasibətlərinin qurulması üçün hər kəs böyük səylər göstərməlidir.

Azərbaycan lap əvvəldən hamı üçün çox cəlbedici regionda yerləşir. Hər cür tarixi hadisələrlə və dinamik siyasi proseslərlə zəngin olan Qafqaz coğrafi mühiti demək olar ki, hamıda böyük maraq doğurur. Bu gün mən və dost-tanışlarım kimi, bütün dünyanın siyasi elitası ölkənizdə baş verənləri diqqətlə izləyir. Biz görürük ki, prezidentiniz öz işinin öhdəsindən əla gəlir. Əminəm ki, Prezident İlham Əliyev manipulyasiya edən, təhrikedici, sabitliyi pozan və yaxud həqiqətən də kömək göstərən, yaxşı və ya pis əməllərin sahibi olan daxili və xarici qüvvələri tanıyır.

Bu vəziyyətdə mütləq manevr etmək və ağıllı qərarlar qəbul etmək lazımdır. Yenə təkrar edirəm: Azərbaycan Prezidenti öz işini gözəl və ustalıqla yerinə yetirir. Bilirsiniz, mübahisəli məsələlər həmişə olub və olacaq. Bunları addım-addım və qurbansız həll etməyi bacarmaq lazımdır. Bunun üçün möhkəm olmaq və bəzən güzəştə getmək də vacibdir.

Sizin kimi, münaqişə zonasında yaşayan bir israilli olaraq deyə bilərəm ki, hər şey tərbiyədən və hazırlıqdan başlayır. Daim hər kəsə və hər şeyə nifrət aşılasanız, heç vaxt sülh olmayacaq və bu halda heç bir siyasətçi müsbət bir şey edə bilməz. Mən bunu ölkəmizdəki ərəb gəncləri arasında görürəm. Onlara hələ beşikdəykən biz yəhudilərə düşmənçilik və nifrət aşılayırlar.

***- Zəngəzur dəhlizindən söz düşmüşkən, İran narahatdır ki, Ermənistanla sərhədi itə, amma qalan bütün region ölkələri bu ideyaya tərəfdardır. Son vaxtlar Minsk qrupu da yenidən aktivləşmək istəyir, hansı ki, daha onlara ehtiyac yoxdur. Sizcə nə istəyir Minsk Qrupu, Rusiya və Türkiyənin Qafqazda roluna ortaq olmaq, yoxsa sadəcə özlərini masada görmək?***

- Bayaq da dedim: Qafqaz kimi cəlbedici regionlarda bir çoxları özlərini oyunçu görmək, münaqişənin özlərinə sərfəli tərəfdən çözümündə həlledici, yekun rol oynamaq istəyirlər. Lakin kim nə deyir desin, seçimi Azərbaycan dövləti və xalqı özü etməlidir. Azərbaycan xüsusi mentalitetə? malik müstəqil dövlətdir. Tarix boyu olduğu kimi, ölkənin və xalqın quruluşu, müəyyən adətənənələri, siyasi sistemi, millətlərarası münasibətləri və sair inkişaf edib. Əgər biz eyni yolla getsək, Azərbaycanın böyük gələcəyi olacaq. Baxmayaraq ki, Azərbaycan şiə-müsəlman dövlətidir, amma başqalarına bənzəmir. Bu Azərbaycan dövlətinin və xalqının xüsusi özəlliyidir və hesab edirəm ki, Azərbaycan bu unikallığı itirə bilməz. Yenə deyirəm: bu gün müəyyən siyasi oyunlar gedir, hər kəs öz maraqlarını müdafiə edir. Amma güc tətbiq etmədən inandırmağı bacaran qalib gələcək. Bununla yanaşı, proseslərə nəzarət edilməli və lazımi anda reaksiya uyğun və ildırım sürəti ilə olmalıdır.

***- Müharibə dövründə və sonrakı quruculuq işlərində İsraili yanımızda gördük. Bu gün quruculuq işlərində bildiyimə görə, İsrailin altı şirkəti çalışır. Siz şəxsən nə təklif edərdiniz ölkəniz adına: İsrail işğaldan azad olunmuş ərazilərdə konkret hansı sahələrdə daha böyük töhfələr verə bilər?***

- İşğaldan azad edilmiş ərazilərdə nə qədər İsrail şirkətinin fəaliyyət göstərdiyinə dair dəqiq məlumatım yoxdur, amma şəxsən öz adımdan deyə bilərəm ki, bir neçə layihə təklif etmişəm.

Birincisi, günəş elektrik stansiyalarının tikintisi. Bu yolla bölgənin enerjiyə tələbatını həll etmək mümkündür. İkinci təklifim isə ölkəmizdə yerləşən almaz birjasının orada da açılmasıdır. Bununla bağlı bir sıra yerli media vasitələrinə müsahibələrimdə də demişəm. Yeri gəlmişkən, təkliflər hələ də qüvvədə qalır. Məncə, biznesin inkişafı və təşviqi üçün heç bir məhdudiyyət yoxdur. İsrail demək olar ki, hər şeyi, xüsusən də tibb və yüksək texnologiya sahəsində bütün layihələri təklif edə bilər.

***- Bilirsiniz ki, Azərbaycanda çox sayda yəhudi yaşayır. Düzdür, əvvəl sayları daha çox idi, amma müstəqillik illərində İsrailə və başqa ölkələrə köçənlər olub. Təşkilat rəhbəri olaraq,***



**Barux Leviev,**
İsrailli ictimai xadim,
"Yerusəlimin əli" təşkilatının
rəhbəri

***həmin soydaşlarınızla əlaqə saxlayırsınızmı, onların Azərbaycanda yaşayışlarından razısınızmı? Ümumiyyətlə, İsrailin siyasi və ictimai sferalarında Azərbaycanda yaşayan yəhudilər haqda necə münasibət var?***

- Azərbaycanda multikulturalizm ən yüksək səviyyədə inkişaf edib və bunu hər kəs, o cümlədən, azərbaycanlı yəhudilər də mütəmadi şəkildə dilə gətirirlər. Həqiqəti gizlətmək olmaz, olan budur. Qloballaşmanı ləğv etmək də mümkün deyil. Bütün ölkələrin insanları digər ölkələri gəzir, yaşamaq üçün köçürlər, bu sirr deyil və şəxsən mən burada pis bir şey görmürəm. Hər şey təbiidir. İnsanlar bir-biri ilə ünsiyyət qurur və bu gün həmişəkindən daha çox bütün növ kommunikasiyalar mövcuddur.

Bəzən bizim isti münasibətimizi başa düşmək üçün lazımsız reklamlara belə ehtiyac qalmır. Xalqlarımız bir-birinə qarşı isti və fəal davranır, görüşür, hətta ailə qururlar. Gənclər inkişaf edərək, irəli gedirlər. Azərbaycandan gəlmiş mühacirlərin İsraildə yaradılmış böyük diasporu mövcuddur və onlar iki ölkə arasında əlaqələrin möhkəmlənməsinə müsbət təsir göstərirlər. İsrailin siyasi rəhbərliyi də yəhudilərin Azərbaycanda necə yaşadığını yaxşı bilir.

***- İsrailin Azərbaycanda səfirliyi var, amma Azərbaycanın İsraildə yox. Bu məsələ sadə İsrail ictimaiyyətində necə qarşılanır? Təbii, siyasi səbəblər aydındır, amma buna cavabı sadə insanların baxışından öyrənmək istərdik...***

- Səbəbləri İsrail vətəndaşı olan sadə insanlar çox yaxşı başa düşürlər. Bu da Qafqazdan olan ictimai xadimlərin, izahat işləri aparan insanların savadlı və vicdanlı əməyi sayəsində baş verir. O cümlədən mən də bu suala cavab verməyə çalışıram. Mən hətta bu müstəvidə ölkələrimizin başçılarına məktublar yazdım, hər cür görüşlər keçirdim, amma təəssüf ki, indiyədək müsbət nəticə əldə edə bilməmişəm. Amma pessimist deyiləm, ümid edirəm ki, yaxın gələcəkdə biz İsrailin paytaxtında Azərbaycan səfirliyinin açılışını birlikdə qeyd edə biləcəyik.

✍ **Vüsal**

# Mərkəz Ağdam olacaq



◂ əvvəli 1-ci səhifədə

"Qarabağ iqtisadi zonasında idarəetmənin bir mərkəzdən koordinasiya olunmasını uğurlu hesab etmək olar. Azad olunmuş ərazilərdə vəziyyət və problemə yanaşma eynidir. Həmin ərazilərdə minalanmış sahələr, hərbçilərin kontrol məsələləri, müharibənin nəticələrinin ortadan qaldırılması problemləri və paralel olaraq qaçqın və məcburi köçkünlərin gələcəkdə geri qayıtması və sair məsələlər var. Ərazidə vahid ortaq hərəkət olacaqsa, bu vəziyyətin tək əldən koordinasiya olunması və proqramlaşdırılmasını effektiv edə bilər".

■ **Bunu hafta.az-a hüquqşünas Ələsgər Məmmədli iqtisadi zonalara Prezidentin xüsusi nümayəndəsinin təyin olunması zərurəti və paralel icra strukturlarında baş verən yenilənmələrin hüquqi aspektlərinə diqqət çəkərkən bildirib.** Hüquqşünas bildirir ki, son bir neçə ildə icra başçılarının ictimai nüfuzu aşağı düşüb. Onun fikrincə, 8 icra başçısının rüşvət və korrupsiya ilə bağlı həbsi, idarəetmədə ciddi şəkildə islahata ehtiyac olduğunu göstərir. Ə.Məmmədli hesab edir ki, mərkəzdən idarəetməni qismən azaldıb, yerli özünü idarəetməni artırmaq, bələdiyyələrin və yerli strukturların seçilməsinə üstünlük vermək lazımdır. "Demokratik inkişaf etmiş dünya sistemini yaxalamaq istəyiriksə, o zaman bölgələrdə yerli idarəetmələrin təşviqini aparmaq lazımdır. Bu seçkili olarsa, idareedici orqan hesab verən və ictimai nəzarətə açıq olar. İndiki icra başçıları mərkəzdən təyin olduğu üçün özlərini padşahlar kimi aparırlar. Hesab edirlər ki, onları bura təyin ediblərsə, nə istəsələr onu edə bilərlər.

Halbu ki, seçilmiş insanın öz seçiciləri qarşısında bir öhdəliyi var. Bu mənada mərkəzi icra hakimiyyətlərinin mahiyyəti ilə yerli idarəetmənin mahiyyətini hansısa formada eyniləşdirib islahata gedilməlidir. İcra hakimləri seçki yolu ilə seçilməlidir. Bunun üçün Konstitusiyanın dəyişikliyi lazımdır". Hüquqşünas hesab edir ki, artıq bunun vaxtı yetişib. Onun fikrincə, böyük şəhərlərin idarəetməsi də bu çərçivəyə daxildir, kiçik ərazilərin də. Ə.Məmmədli bu gün kommunal, rabitə, mədəniyyət, ekologiya, təhsil, sosial və s. sahələr üzrə hər bir məsələnin mərkəzləşdirilmiş qaydada dövlətdən idarə olunmasına diqqət çəkib. Onun sözlərinə görə, belə olan halda bütün fundamental yerli idarəetmə funksiyaların hamısını dövlət öz üzərinə götürmüş olur.

"Konstitusiyamızda Bələdiyyə İnstitutu nəzərdə tutulsa da, hüquq bazası çox zəif formalaşıb. Avropa özünü yerli idarəetmə xartiyasında məcburi olaraq bələdiyyələrə verilməli olan səlahiyyətlərin bir çoxu verilməyib. Bu istiqamətdə bələdiyyələrin modeli, statusu, səlahiyyətli genişləndirilməlidir. Bir çox xidmət sektorları yanğınsöndürmə, kommunal infrastrukturu, məktəbəqədər təhsil, sosial məsələlər, yerli əhəmiyyətli yolların inşası, saxlanması, parkların tikilməsi, saxlanılması bələdiyyə xidmətinə daxildir. Dövlət klassik idarəetmə funksiyasınatəhlükəsizlik məsələlərinə, xarici əlaqələr və vahid büdcə, maliyyə məsələlərinə nəzarət etsə, daha məqsədəuyğundur. Təməl təhsilin bəlli bir hissəsinin dövlətdə olması normaldır. Bunun xaricində dövlət bir çox sahələrdən çəkilməlidir". Ə.Məmmədli son dövlər Prezidentin xüsusi nümayəndəlik institutlarını inkişaf etdirməyə başladığını qeyd edərək, bunu irəliyə doğru addım adlandırıb.

"Bu addımları əvvəl İçərişəhərdə, sonra Şuşada, Qarabağda gördük. Konstitusiyada Prezidentin nümayəndəlik institutu yoxdur. Lakin görünür ki, Prezident yüksək icra funksiyasını yerinə yetirmək üçün belə bir addıma ehtiyac duyub". Ə.Məmmədli bu gün diqqət çəkən məqamlardan biri kimi bəzi mərkəzi icra hakimiyyəti orqanlarının səlahiyyətlərinin fabrik hüquqi şəxs statusuna keçirildiyini deyib. Onun fikrincə, burada klassik dövlət xidmətləri formatı dəyişir və həm də kommersiya ilə bir az iç -içə keçir. Hüquqşünas hesab edir ki, bunun nə dərəcədə effektiv olacağını indidən demək çətindir.

Finksional dövlət işini, xidməti işdən ayırmaq lazımdır. "Bəzən vətəndaşa xidmət etməli olan dövlət işi, xidməti işə keçir və vətəndaşı müştəri kimi görməyə başlayır. Tənzimləmə və xidmət göstərmə bir əldə olmamalıdır. Bu, rəqabətli mühiti baltalayar, inkişaf olmaz. Tənzimləyici tənzimləyici, xidmət də xidmət yerində qalmalıdır. İndiki halda bəzi fabrik hüquqi şəxslərin həm tənzimləmə, həm də cərimə xidmət funksiyası var. Bu da çaşbaşlıq yaradır və düşünürəm ki, bu istiqamətdə daha aydın viziona ehtiyac var. Hökumət bu istiqamətdə yanaşmasını konkretləşdirsə çox yaxşı olar".

✍ **Tahirə**

# "Heydər Əliyevə sui-qəsd cəhdinin şahidi oldum..."

## Anım



**Cahangir Hüseynov,**
sabiq deputat, hüquq elmləri üzrə fəlsəfə doktoru



**12 dekabr - Heydər Əliyevin anım günüdür. 1990-cı illərin əvvəlində Heydər Əliyevin hakimiyyətə qayıdışı, eləcə də Yeni Azərbaycan Partiyasının yaranmasında böyük xidmətləri olmuş Azərbaycan parlamentinin sabiq deputatı, uzun müddət müxtəlif bölgələrdə polis rəisi kimi çalışmış hüquq elmləri üzrə fəlsəfə doktoru Cahangir Hüseynov hafta.az-a müsahibəsində mərhum eks-prezident barədəki xatirələrindən bəhs edib.**

***- Cahangir müəllim, həyatınızda Heydər Əliyevi ilk dəfə nə vaxt görmüsünüz?***

- Heydər Əliyevin anım günü ilə bağlı bəzi xatirələrimi ilk dəfə sizin sayta danışıram... Heydər Əliyevlə ilk görüşüm hələ 12 yaşım olanda - 1965-ci ilin sentyabrında Göyçay rayonunda olub. Həmin vaxt Heydər Əliyev Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsində (DTK) işləyirdi. Onun rayona gəlişinə səbəb həmin vaxt sovet dövlətinin başçısı Nikita Xuruşşovun kənd təsərrüfatı islahatları ilə bağlı Göyçayda başlamış kəndli üsyanları olmuşdu. Belə ki, həmin islahatlarla bağlı rayonun bir sıra kolxoz və sovxozlarının üzvləri eyni təsərrüfatda birləşmələrinə etiraz edirdilər...

Kəndlilər Göyçay Rayon Partiya Komitəsinin binasına hücum edərək binanı dağıtmış, rayonun kəndlərində də böyük iğtişaslar törətmişdilər. Mənin oxuduğum 1 nömrəli orta məktəb rayon partiya komitəsinin yaxınlığında yerləşdiyindən, həmin səs-küylü üsyanın birbaşa şahidi oldum. Yadımdadır, hətta rayon partiya komitəsinin birinci katibi A.Mürsəlova da xəsarət yetirmişdilər. Rayonda çox ağır bir vəziyyət yaranmışdı. Atam Hüseyn Hüseynov Göyçay Rayon Məhkəməsinin sədri işlədiyindən, rayon partiya komitəsi bürosunun üzvü idi. Bu iğtişaşların yatırılması üçün rayona ezam olunmuşlar arasında DTK sədrinin müavini Heydər Əliyevlə yanaşı, Mərkəzi Komitənin məsul işçiləri, o cümlədən sonradan daxili işlər naziri və MSK sədri olmuş Cəfər Vəliyev də var idi...

Rəhmətlik atam Hüseyn Hüseynov Heydər Əliyevlə BDU-nun tarix fakültəsində tələbə yoldaşı olduğundan, Göyçaydakı Qonaq evində onunla görüşüb xeyli söhbət etdilər.

Mən də həmin vaxt atamın yanında olduğumdan, Azərbaycanın gələcək lideri ilə ilk görüşüm baş tutdu...

Daha sonra mən Moskvada SSRİ Daxili İşlər Nazirliyi Ali Akademiyasının dinləyicisi olarkən 1987-ci ilin ilk aylarında baba Müslüm Maqomayevin 100 illik yubileyində Heydər Əliyevi Siyasi Büronun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yaxından görüb onunla görüşdüm...

***- Hələ 1990-cı ilin iyulunda onun üçün ən təhlükəli bir dövrdə Moskvadan Bakıya gələn Heydər Əliyevi qarşılamaq üçün Bakı hava limanına gedən digər bir neçə tanınmış siyasi arasında siz də olmusunuz. Bildiyimizə görə, orada Heydər Əliyevə sui-qəsd cəhdi də olub.***

- Bəli. O zaman Ağdaşda milis rəisi işləyirdim. Uzun illər xalq hakimi işləmiş atam Hüseyn Hüseynov, öncə dediyim kimi, Azərbaycan Dövlət Universitetinin tarix fakultəsində Heydər Əliyevlə birlikdə təhsil aldığından ona böyük hörmətlə yanaşırdı.1990-cı il iyulun 20-də Heydər Əliyevin Moskvadan Bakıya gəldiyini eşidən atam təkid etdi ki, biz onu qarşılamağa getməliyik. Beləliklə, biz ovaxtkı bütün təhükələri göz önünə alaraq hava limanına yollandıq. Orada əsasən Bakı kəndlərindən onlarca adam toplaşmışdı. Etirazçılar əllərində cürbəcür şüarlar yazılmış plakatlar tutaraq H.Əliyevin gəlişinə etiraz edirdilər. Təbii ki, bu, ovaxtkı Mərkəzi Komitə rəhbərliyi tərəfindən təşkil edilmişdi. Biz təəccübləndik ki, H.Əliyevin Moskvada SSRİ rəhbəri M.Qorbaçovla böyük ziddiyyətləri olduğu, infarkt keçirdiyi bir məqamda Azərbaycanda bu etirazlar nəyə xidmət edir.

Ulu öndəri qarşılayanlar əsasən Cəlal Əliyev, sabiq paytaxt meri Rəfael Allahverdiyev, əvvəllər MK-da işləmiş Sabir Hüseynov və keçmiş milis işçisi Etibar Qazıbəyov idi. H.Əliyev təyyarədən düşəndə ora toplaşan etirazçılar tərəfindən ona qarşı hər cür cür təxribat törədilə bilərdi. R.Allahverdiyevin sürücüsü "QAZ-24" markalı avtomobili cəld təyyarə trapının yanına sürərək Heydər müəllimi təcili deputat zalına çatdırdı.

Ora gedən yolda avtomobilin qarşısına hesab edirəm ki, qəsdən "ZİL" markalı bir yük maşını sürüldü. R.Allahverdiyevin sürücüsü böyük ustalıq nümayiş etdirərək Heydər Əliyevi o qəzadan xilas edə bildi. Ulu öndər aeroportda gerçək sui-qəsd təhlükəsi ilə üz-üzə qaldı Sonra H.Əliyev oradan birbaşa qardaşı Cəlal Əliyevin evinə yollandı

***- YAP-ın qurucularından biri olan rəhmətlik Maksim Musayev bizimlə söhbətdə deyirdi ki, Heydər Əliyevin hakimiyyətə qayıdışı məsələsini ilk dəfə əsaslandırılmış hüquqi və siyasi şəkildə ortalığa qoyan hüquqşünas-deputat Cahangir Hüseynov oldu... Bu, necə baş verdi?***

- Bəli, doğrudur. Allah Maksim müəllimə də rəhmət eləsin. Onun da müstəqil dövlətçiliyimizin quruculuğunda, o cümlədən Heydər Əliyevin qayıdışında böyük rolu olmuşdur.

> *"Onunla ilk dəfə 12 yaşımda görüşmüşəm...*

1992-ci il martın 3-də Xocalı faciəsi ilə bağlı keçirilmiş fövqəladə sessiyada çıxış edərək ovaxtkı prezident Mütəllibova və deputatlara müraciət etdim ki, ölkəni bu gərgin durumdan çıxarmaq, erməni işğalının qarşısını almaq üçün Heydər Əliyev təcili hakimiyyətə gətirilməlidir.

Orada sual etdim ki, bax, bu parlament binasını kim tikdirib? Dedilər, Heydər Əliyev. Soruşdum ki, bəs həmin insanın niyə burada oturmaq hüququ olmasın Düzdür, odövrkü şəraitdə mənə çox dəstək verən olmadı. O təşəbbüs hadisələrin gələcək inkişafına böyük təkan verdi. Mənim o çıxışımadək heç kəs Heydər Əliyevin hakimiyyətə gətirilmək məsələsini istər parlamentdə, istərsə də qəzetlərdə, televiziyada qaldırmamışdı.

Bundan əlavə, 14 may 1992-ci ildə hakimiyyət böhranı baş verdiyindən, keçirilmiş fövqəladə sessiyada Arif Rəhimzadə, Eldar İbrahimov və mən Heydər Əliyevin Ali Sovetin sədrliyinə namizədliyini irəli sürmüşdük...

***- YAP-ın qurulduğu ilk dövrləri necə xatırlayırsınız?***

- Yadımdadır, ilk dəfə böyük bir çətinliklə - 1992-ci ilin noyabrında Biləsuvar rayonunda YAP-ın rayon şöbəsinin təsis konfransını keçirə bildik. Bu işdə Murtuz Ələsgərov, Sirus Təbrizli, Əli Nağıyev, Asya Manafova, Şahlar Əsgərovla yanaşı, rəhmətlik Maksim Musayevin də müstəsna xidmətləri olmuşdu. Tezliklə respublikanın əksər rayonlarında YAP-ın təsis konfransları keçirildi. Mən də polis rəisi vəzifəsindən istefa verib bütün enerjimlə Bakida Milli Məclisin iclaslarına qatılmaq qərarına gəldim...

Onu da deyim, 1993-cü ilin martında Bakıya qardaşı Həsən Əliyevin "40 mərasimi"nə gəlmiş Heydər Əliyev vaxtının azlığına baxmayaraq Nərimanov metrosu yaxınlığındakı qərargahda bir sıra YAP fəalları ilə birgə Maksim Musayevi və məni də qəbul edərək 1 saata yaxın bizimlə söhbət etdi, ictimai-siyasi durumla bağlı dəyərli tövsiyələr verdi.

Daha sonra "28 May" metrosu yaxınlığında Ulu Öndərin gəzintisini böyük bir qrupla müşayiət etdik...

***- 1993-cü ilin yazında bir qrup deputat Heydər Əliyevin qayıdışını təşkil etmək məqsədilə Ali Sovetin növbədənkənar sessiyasının çağırılmasını tələb edir və bu məqsədlə imza toplayırdı. Siz bu prosesdə necə iştirak edirdiniz?***

- Mən, rəhmətlik Maksim Musayev, Əli Nağıyev, Rəfael Allahverdiyev və b. bu prosesdə fəal iştirak edirdik. Onu da deyim ki, bəziləri tərəddüd edir, hətta qorxurdular. Rəhmətə getdiyi üçün adını çəkmirəm, general rütbəli bir deputat var idi. Ona imza üçün müraciət etdim. Dedi ki, Cahangir, xahiş edirəm məndən uzaq ol. Dedim, a kişi, burada nə var ki, qorxursan? Dedi, qorxuram.

Onun yanından çıxıb parlamentə gəldim, aparat işçiləri mənə çatdırdılar ki, indi həmin general zəng edib rəhbərliyə ki, Cahangir Hüseynov məndən H.Əliyevin qayıdışı üçün imza almaq istəyirdi, razı olmadım. Bütün bu çətinliklərə rəğmən 132 imza toplaya bildik. Təsəvvür edirsinizmi, hətta Surət Hüseynov da deputat kimi Heydər Əliyevin qayıdışı üçün imza atmışdı. Biz həmin imzaları parlament sədri İsa Qəmbərə təqdim etdk. O, müavini Tamerlan Qarayaevlə birgə baxdı və dedilər ki, məsələni Prezidentə çatdırıb sizə məlumat verərik. Biz sessiya söhbətini, bir qrup deputatın qeyri-qanuni olaraq parlament iclaslarından təcrid edilməsi məsələlərini qaldıranda AXC hakimiyyətindən bəziləri deyirdilər ki, hakimiyyətə zor gücünə gəlmişik, bacarırsınızsa, siz də gəlin. Bu minvalla məsələ uzandı, sonra da Gəncədə hadisələr baş qaldırdı...

***- Sizcə, həmin sessiyanı keçirə bilsəydiniz, Gəncə hadisələri baş verməyəcəkdi?***

- İnanın ki, əgər həmin sessiya alınsaydı və Heydər Əliyev vaxtında Bakıya qayıtsaydı, çox güman ki, Gəncədə heç bir qiyam-filan baş verməyəcəkdi və hər şeyi əmin-amanlıqla qaydasına salacaqdıq...

***- Cahangir müəllim, Heydər Əliyevin o zaman sizin də üzvü olduğunuz parlamentə sədr seçildiyi 15 iyun 1993-cü il tarixini necə xatırlayırsınız?***

- Çox gərgün hadisələr yaşadıq. Gəncədə boş yerə günahsız insanların, hərbçilərin qanı töküldü. Heydər Əliyev öz gəlişi ilə bu qanın, ümumiyyətlə, Azərbaycanı gözləyən daha böyük fəlakətlərin qarşısını aldı. O, Bakıya gələndən bir neçə gün sonra artıq öz zəifliklərini dərk edən ovaxtkı hökumət üzvləri, eləcə də Ali Sovet sədri istefa verdi. İyunun 15-də böyük ruh yüksəkliyi və təntənə ilə Heydər Əliyevi parlament sədri seçə bildik. Həmin ilin noyabrında Prezident seçilmiş Ulu Öndərin Azərbaycandakı sonrakı fəaliyyəti isə bütün xalqa məlumdur və bu barədə saatlarla danışmaq olar...

Yalnız onu demək kifayətdir ki, 1994-cü ilin 12 mayında Bişkek şəhərində Ermənistan ilə atəşkəs muqaviləsi bağlanması ilə hərbi əməliyyatların dayandırılması və bundan sonra dövlətçiliyimizin möhkəmləndirilməsi işinin başlanması məhz Heydər Əliyevin böyük siyasətinin nəticəsi oldu. Həmin müqavilədən sonra "Əsrin kontraktı"nın imzalanması, Azərbaycanın dağılmış iqtisadiyatının bərpa edilməsi, ordu qurulucuğunun sürətləndirilməsi və s. baş verdi. Sonda isə hazırkı dövlət başçısı İlham Əliyevin apardığı məqsədyönlü uğurlu siyasəti və 44 günlük İkinci Qarabağ müharibəsi nəticəsində torpaqlarımız erməni işqalçılarından azad edildi...

Əlbəttə, bütün bu uğurlar Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə başlandı. Ölkəmiz bu gün Cənubi Qafqazın və MDB məkanının ən inkişaf etmiş dövlətidir. Yeni qələmə aldığım "Yeni Qarabağnamə - Qarabağ Azərbaycandır!" əsərimdə bütün bu məsələlərə geniş yer ayırmışam... Sonda Ulu öndər Heydər Əliyevə və torpaqlarımız uğrunda şəhid olmuş övladlarımıza Allahdan rəhmət diləyirəm...

***Sultan Laçın***

## Aktual

# Bu, qaliblə məğlubun eyniləşdirilməsidir

**Politoloq Turan Rzayevlə hafta.az üçün söhbətimizdə Brüssel görüşü öncəsi Qarabağ və Ermənistan sərhədləri məsələləri ətrafındakı siyasi durum, amerikalı məşhur politoloq Pol Qoblun Ermənistan-Azərbaycan qarşıdurmasının həlli və tərəfləri sülhə gətirmək üçün verdiyi təkliflər, Ermənistan baş naziri Nikol Paşinyanın devriləcəyi halda mühitin hansı istiqamətdə dəyişə biləcəyi və s. mövzularda danışdıq.**

***- Brüssel görüşü öncəsi Qarabağda və ya Ermənistanla sərhəddə hansısa gərginlik gözlənilirmi?***

- Gərginliyin olması rəsmi İrəvanın atacağı addımlardan asılı olacaq. Bütün hallarda rəsmi Bakı regionda gərginliyin yaranmasını istəmir. Bizim niyyətimiz davamlı müharibə olsaydı, şübhəsiz, bunu etmək üçün ordumuz da, siyasi iradəmiz də var idi. Rəsmi Bakı indiki halda sərhədlərin demarkasiya və delimitasiyasının Ermənistandan provakasiya olmadan və süni maneələrsiz aparılmasını, Zəngəzur dəhlizinin açılmasını istəyir. Bu istək həm 44 günlük müharibənin qalibiyyəti, həm də 10 Noyabr bəyanatından irəli gəlir. Ermənistan bu məsələdən nə qədər yayınmaq istəsə də, buna nail ola bilməyəcək. Zəngəzur dəhlizinin açılması yalnız Azərbaycanın deyil, regionda marağı olan bütün qüvvələrin istəyidir. Ermənistan bütün bunlara baxmayaraq, öhdəliklərdən yayınmaq istəsə, bu gərginliyin yenidən yaranmasına gətirib çıxara bilər.

Brüssel görüşünə gəldikdə isə görüşöncəsi bu və ya başqa formada gərginliyi artırmaq heç kəsə sərf etmir. Rəsmi İrəvan buna əl atsa, bu görüşöncəsi onun özü üçün yaxşı heç nə vəd etməyəcək. Düşünürəm, gərginliyi artırmaqdan çox tərəflər hazırda görüşöncəsi bunu azaltmağa çalışır. On erməni divresantının Ermənistana təhvil verilməsi əvəzinə minalanmış ərazilərin xəritələrinin Azərbaycana verilməsi bunu göstərir...

- Məşhur politoloq, ABŞ Dövlət Departamentinin keçmiş xüsusi müşaviri Pol Qobl Caliber.az-a müsahibəsində Ermənistan-Azərbaycan qarşıdurmasının həlli və tərəfləri sülhə gətirmək üçün 3 variant təklif edib:

*– birincisi, bir tərəfin digər tərəf üzərində qeyd-şərtsiz və tam hərbi qələbəsi;*

*– ikincisi, xarici oyunçu tərəfindən sülh nizamlanmasının sırınması;*

*– üçüncüsü, tərəflərin sövdələşməsi.*

*Elə bir sövdələşmə ki, Ermənistan və Azərbaycan malik olduqlarından imtina etmək müqabilində istədiklərini alacaqlar. Yəni Ermənistan və Azərbaycan kompromisə gedəcək və hər tərəf özünə lazım olanı əldə edəcək...*

Zəhmət olmasa, hər bir variant haqda fikirlərinizi söyləyərdiniz...

- ABŞ Dövlət Departamentinin keçmiş xüsusi müşaviri Pol Qobl kifayət qədər təcrübəli insandır. Onun Ermənistan-Azərbaycan qarşıdurmasının həlli və tərəfləri sülhə gətirmək üçün təklif etdiyi 3 variant da maraqlıdır. Hesab edirəm, onun təklif etdiyi 1-ci variant hazırda aktualdır.

Rəsmi Bakı Ermənistan kapitulyasiya aktı imzalayana qədər müharibəni davam etdirə bilərdi. Ermənistan 10 Noyabr bəyanatını imzalayana qədər müharibəni davam etdirdi. 10 Noyabr bəyanatı yekun sülh müqaviləsi olmadığı üçün iki ölkə arasında siyasi müstəvidə müharibə hələ də davam edir. Yəni rəsmi İrəvan sərhədlərin demarkasiya və delimitasiyasını icra etməsə, Zəngəzur dəhlizini açmasa, rəsmi Bakı beynəlxalq hüquqa uyğun olaraq Ermənistanı sülhə məcburetmə əməliyyatına başlaya bilər... Pol Qoblun ikinci təklifinə gəldikdə isə deyə bilərəm ki, o, "xarici oyunçu tərəfindən sülh nizamlanmasının sırınması" deyərək Rusiyanı nəzərdə tutur. Yəni Pol Qobl faktiki olaraq Rusiyanın tərəfləri zorla danışıqlar masasına oturtduğunu demək istəyir. Hər halda bu, onun öz fikridir, lakin düşünmürəm ki, mövcud danışıqlar prosesi Kremlin Bakı və İrəvana diqtəsi ilə baş verir. Soçidə keçirilən son görüş zamanı ölkə başçısının Putin ilə səmimi ünsiyyəti buna misal ola bilər. Digər tərəfdən, regionda Türkiyə faktoru da var ki, bu faktor da özlüyündə Kremli ehtiyatlı davranmağa vadar edir. Yəni görünür, Pol Qobl mövcud vəziyyətdə Bakının diplomatiyasını hesaba almadan Rusiya faktoruna görə belə variantı irəli sürür. Maraqlıdır, prosesdə Rusiya yox, ABŞ iştirak etsə idi, Pol Qobl Vaşinqtonun vasitəçiliyini "xarici oyunçu tərəfindən sülh nizamlanmasının sırınması" kimi adlandıra bilərdi?

Üçüncü varianta gəldikdə, deyə bilərəm ki, indiki halda bu, real deyil. Tərəflərin sövdələşməsi elə bir sövdələşmədir ki, Ermənistan və Azərbaycan malik olduqları nələrdənsə imtina etmək müqabilində istədikləri bir şeyi alacaqlar, demək doğru deyil. Bu, faktiki olaraq qalib və məğlub tərəfin eyniləşdirilməsi, işğalçı və işğala məruz qalanın eyni tutulmasıdır. Rəsmi Bakı onsuz da Ermənistana çox güzəştə gedir. Rəsmi İrəvana indiki halda ediləcək bir güzəştin ardı-arası kəsilməyəcək. Rəsmi Bakı Zəngəzur dəhlizinin açılması sonrası Ermənistanın blokadadan çıxması, 6-lıq platformada region ölkələri ilə bərabər hüquqda iştirak etməsi, hətta gələcəkdə reallaşacaq enerji layihələrində iştirak etməsini təklif edir. Bundan böyük güzəşt, kompromis ola bilərmi?..

***- Azərbaycan əsasən Rusiyanın təklif etdiyi həll variantına, hazırkı Ermənistan hakimiyyəti isə Qərb variantına üstünlük verir. Belə olan halda iki ölkə arasında sərhədlərin müəyyən olunması və sülh sazişinin imzalanması məsələsi illərlə çəkə bilməz ki?***

- Azərbaycanın Rusiya ilə birlikdə təklif etdiyi variant daha məqbuldur. Sərhədlərin demarkasiya və delimitasiyası, eyni zamanda, Zəngəzur dəhlizinin açılması hansı əsasla qeyri-konstruktiv hesab edilə bilər? Ermənistana gəldikdə, rəsmi İrəvan 27 illik "danışıqlar prosesin"də olduğu kimi, indi də prosesi uzatmağa çalışır. Digər tərəfdən, Ermənistan Qərb variantına üstünlük verə bilər, lakin Qərbin regiona təsir imkanı Kreml qədər deyil. Bu mənada Ermənistan Qərbin təklifi ilə çətin ki, nəsə etsin...

***- Ermənistanda Paşinyan devrilərsə və yenidən Rusiyameyilli hakimiyyət qurularsa, proseslər hansı istiqamətdə inkişaf edə bilər? Revanşist güclər daha da fəallaşar, yoxsa əksinə, rəsmi İrəvan tərəfindən Putinin qarant durduğu 10 Noyabr Bəyanatında nəzərdə tutulan bütün işlərin görülməsi üçün addımlar atılar?***

- Hesab edirəm, Paşinyanın devrilməsi rəsmi Bakıya sərf etməyəcək. Baxın, bu heç də Paşinyana rəğbətdən irəli gəlmir. Real yanaşmaq lazımdır. Kreml Paşinyanı cəzalandırır, həm də ehtiyat edir. Paşinyanın qərbpərəst siyasəti Kreml nəzdində qəbuledilməzdir. Moskva Paşinyanı nəzarətdə saxlamaq üçün daxildəki rusmeyilli qüvvələrdən istifadə edir. Bu, o demək deyil ki, Kreml Paşinyanı devirmək istəyir. Rusiya anlayır ki, Paşinyan imkan düşən kimi Qərbə inteqrasiya edəcək və rus asılılığından çıxacaq.

Buna görə də bu və ya başqa formada ona təzyiq etmək istəyir. Paşinyanın hakimiyyətdə qalması rəsmi Bakıya ona görə sərf edir ki, Paşinyan hakimiyyətdə qaldıqca Kreml daim Ermənistandan narahat olacaq. Digər tərəfdən, Nikol Paşinyan səhv etməyə meyilli bir rəhbərdir ki, bu da Bakıya sərf edir. Qarabağ klanı yenidən hakimiyyətə gəlsə, düşünürəm, regiondakı siyasi balans əsaslı sürətdə dəyişə bilər. Əvvəla, ona görə ki, bu baş versə, Rusiya Ermənistandan daha narahat olmayacaq və 44 günlük müharibə öncəsi vəziyyət təkrarlana bilər. Söhbət 27 illik



**Turan Rzayev,**
politoloq

mənasız danışıqlar prosesi və status-kvonun saxlanılmasıdır. Bu mənada Paşinyanın hakimiyyətdə qalması bizim maraqlarımıza cavab verir...

***- Sizcə, Rusiya lideri Putinin və baş diplomatı S.Lavrovun "status məsələsinə sonra baxıla bilər" kimi fikirləri, eləcə də Rusiyanın rəsmən sülhməramlı sayılan hərbi kontingentinin ölkənin Müdafiə Nazirliyinin rəsmi saytındakı gündəlik informasiya bülleteni və xəritələrində Azərbaycan Respublikasının öz ərazisi üzərindəki suveren haqlarına hörmətsizlik edərək "Dağlıq Qarabağ" ifadəsini inzibati ərazi vahidi kimi işlətməsi, Şuşanı, hətta Laçını "Dağlıq Qarabağın rayonu" kimi təqdim etməsi, Xankəndini "Stepanakert", Ağdərəni "Mardakert", Xocavəndi "Martuni" və s. adlandırması və digər davranışları Kremlin də yaxın gələcəkdə Qarabağdakı ermənilərə status verilməsinə nail olmaq niyyətindən xəbər vermirmi?***

> *"Azərbaycan Ermənistanı sülhə məcburetmə əməliyyatına başlaya bilər...*

> *Paşinyanın devrilməsi rəsmi Bakıya sərf etməyəcək...*

- Hesab edirəm, Qarabağ klanı hakimiyyətdə olsaydı və ya gələcəkdə olsa, bu senari özünü doğrulda bilərdi. Mövcud şərtlər daxilində bu mümkün deyil. Digər tərəfdən, ölkə başçısı Prezident İlham Əliyev birmənalı surətdə qeyd edib ki, bu və ya başqa formada status məsələsi müzakirə predmeti deyil. Məncə, bu sözdən sonra status məsələsi ilə bağlı bütün suallar mahiyyətini itirir.

Düşünmürəm ki, Kreml Paşinyan hakimiyyətdə olduğu müddətdə Qarabağ ermənilərinə status verilməsinə çalışsın. Digər tərəfdən, bu heç Kremlin səlahiyyətində olan məsələ də deyil. Hesab edirəm ki, bizim ölkədə proseslərə regional sferadan baxılır. Kreml ətrafında, yəni beynəlxalq aləmdə geo-siyasi vəziyyət də gərgindir. Rəsmi Moskva ABŞ təzyiqləri ilə üz-üzədir. Belə real təhlükə altında, çətin ki, Kremli Qarabağ düşündürsün...

***Sultan Laçın***

# Zorakılığa məruz qalan qadınlar

## Layihə

***Bu gün dünyanın istənilən yerində qadınlara qarşı zorakılıq hallarına rast gəlinir. Sadəcə olaraq, bu hal bəzi ölkələrdə ümumi cinayətlərin çox cüzi faizini, bəzi ölkələrdə isə əsas hissəsini təşkil edir. Aparılan müşahidələrə görə, son illər dünyada qadınlara qarşı zorakılıq halları, ailə münaqişələrinin sayı əhəmiyyətli dərəcədə artıb. Bunun əsas səbəbi kimi isə pandemiya göstərilir. Belə ki, qlobal hesablamalara əsasən, dünyada ən az 3 qadından biri fiziki, cinsi, psixoloji zorakılığa məruz qalır. Bu barədə danışan BMT-nin Azərbaycandakı nümayəndəliyində Rezident nümayəndənin səlahiyyətlərini icra edən Çaru Bistin sözlərinə görə,qadınlara qarşı zorakılıq növləri pandemiyadan sonra artıb:***



”Xüsusilə də məişət zorakılığı artıb. Avropa və Asiyada zorakılıq hallarının artdığı daha çox müşahidə olunur. Buna kölgə pandemiyası adı verilib. COVID-19-la bağlı böhranın aradan qaldırılması üçün cəhdləri birləşdirməlidir. Dünyada bütün qadın sığınacaqlarının tutumlardan istifadə edilib. BMT tərəfdaşları ilə birlikdə kölgə pandemiyasının aradan qaldırılması istiqamətində əlindən gələni edib”.

■ **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova isə bildirib ki, qadınlara qarşı zorakılıq cəmiyyətimiz tərəfindən həmişə mənfi qarşılanıb.** O deyib ki, son illərdə həyata keçirilən mühüm tədbirlərə baxmayaraq, ölkədə qadınlara qarşı zorakılıq halları davam edir: “Bununla bağlı bir sıra normativ hüquqi sənədlər qəbul olunub və mühüm irəliləyişlər əldə edilib. Ən vacib məsələlərdən biri qadınların iqtisadi inkişafına təkan vermək, əmək bazarında kişilərlə bərabər iştirakı ilə nəticələnir”.

Onun sözlərinə görə, hazırda daha çox Mərkəzi Aran rayonlarda qadınlar zorakılığa məruz qalırlar: “Bununla bağlı təhlil aparılıb. Qadınlara qarşı zorakılıq daha çox yaxınları tərəfindən olur. Qadınlara qarşı zorakılıq hallarında son illərdə artım yoxdur. Sadəcə, bu hallara reaksiyalarda artım var”.

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitunun əməkdaşı professor Əhməd Qəşəmoğlu hesab edir ki, qadınlara qarşı zorakılıq, ailə münaqişələrinə səbəb kimi pandemiya, iqtisadi-sosial problemlər göstərilsə də, məsələnin kökü tamamilə başqadır:** “Müşahidəm əsasında deyə bilərəm ki, bu cəmiyyət gün-gündən daha da mürəkkəbləşir. Bu da təbiidir, çünki sürətlə qloballaşma prosesi baş verir. Bəziləri deyir ki, pandemiya nəticəsində qloballaşma dayanıb və yaxud zəifləyib. Lakin bu qeyri-ciddi söhbətdir. Pandemiya nəticəsində yalnız qloballaşmanın xarakterində dəyişikliklər olub, amma qloballaşma yenə də sürətlə davam edir. Beləliklə, cəmiyyət günü-gündən sürətlə mürəkkəbləşməyə doğru getdikcə həm də daha da həssaslaşır, bu zaman insanların psixologiyası da dəyişir. Bəli, bu məsələdə pandemiyanın, iqtisadi vəziyyətin öz rolu var. Əgər insanların bir-biri ilə ünsiyyəti dayanırsa, bu ciddi bir məsələdir”. Ekspert onu da əlavə edib ki, bu gün qadınlara azadlıq, demokratiya haqqında

> “ *Aparılan təhlillərə görə, hazırda Azərbaycanda qadınlar bu kimi hallarla daha çox Mərkəzi Aran rayonlarda üzləşirlər*

dəqiq olmayan çoxlu məlumatlar verilir, bu mövzuda maarifləndirmə düzgün istiqamətdə aparılmır: “Bəzən qadınlar bir çox hallarda ürəkləri nə istəsə etməyi azadlıq kimi qəbul edirlər. Digər tərəfdən də, köhnə adət-ənənələrə meyilli olan kişilər qadınların birdən-birə bu qədər sərbəstləşməsinə təəccüb edirlər və buna anormal hal kimi baxırlar.

Yəni nə kişilərimizin müasir dövrün tələbləri ilə bağlı məlumatları, nə də qadınlarımızın azadlıq və demokratiya haqqında təsəvvürləri düzgün və arzuolunan səviyyədə deyil. Ona görə də bu cür gərginliklər yaşanır. Bu problemin həlli üçün bir çox işlər görməliyik. Yaxşı olardı ki, sahə müvəkilləri olduğu kimi bütün məhəllələrdə sosial iş xidməti də təşkil edilsin. Beləliklə də sosial iş xidməti aid olduğu məhəllə üzrə ailələrdə nə baş verdiyini biləcək, zərurət olduqda bununla bağlı lazımi orqanlarla əlaqə saxlayacaq”.

Ə.Qəşəmoğlu vurğulayıb ki, hazırda sosial şəbəkələr, televiziyalar da cəmiyyəti mövzu ilə bağlı yetərli səviyyədə maarifləndirmir: “İnsanın davranışına təsir edən 4 mühüm amil var. Birincisi insanın öz daxili aləmi, ikinci mühit, üçüncü aldığı informasiyalar və dördüncü isə üstünlük verdiyi dəyərlərdir. Əvvəl ailəni möhkəm saxlayan amil mənəvi dəyərlərə üstünlük verilməsi idi. İndi mənəvi dəyərlərə cəmiyyətdə lazımi qədər üstünlük verilmir. Nəticədə belə vəziyyət yaranır. Vəziyyətdən çıxış yolu var və bu, heç də çətin deyil. Bu məsələ ilə bağlı elmi əsaslarla ciddi bir fəaliyyət proqramı hazırlanmalı, bu proqramı da konkret mexanizmlərlə həyata keçirilməlidir. Məsələn, tarix boyu stereotiplər və normalar var



**Əhməd Qəşəmoğlu,**
AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitunun əməkdaşı, professor

idi. Evlənənlər ailədə kişinin və qadının borcunun nə olduğunu bilirdilər və bunu bir norma kimi qəbul edirdilər. Ailə qurandan sonra da yüz illər boyu formalaşmış normanı yerinə yetirirlər. İctimai qınaq və rəy də buna nəzarət edirdi. Yəni, kişi normal hərəkət etməyəndə el qınağına məruz qalırdı. İnsanların beynində hazır bir model var idi. Əvvəllər ailələrdə indikindən fərqli olaraq isti münasibət var idi. Düzdür, o dövrdə də xoşagəlməz hallar olub, amma bu qədər olmayıb. Cəmiyyət mürəkəb olanda isə ailə normaları pozulur. İndiki evlənən cütlüklərlə əvvəlkilərin ailə haqqında təsəvvürləri eyni deyil”.

■ **Məsələyə münasibət bildirən “Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova isə hesab edir ki, zorakılıq bütün zamanlarda olub və hazırda da hər yerdə var:** “Bu problem şərqdə də, qərbdə də mövcuddur. Ancaq zorakılığın formaları, məzmunu var. Bəzən məzmun dəyişir, forma dəyişmir. Motiv eyni olsa da, zorakılıq formaları daha qəddar olur. Bu kişinin qadın üzərində hökmranlığı və ya qadın üzərində öz səlahiyyətlərindən istifadə etməsi, yaxud qadının kişidən kifayət qədər güclü olmasının qarşısını almaq, onu susdurmaq, öz varlığını göstərə bilmək şəklində ola bilər. Zorakılığın əsas mahiyyəti ondan ibarətdir ki, tərəflər arasındakı münasibətdə qarşılıqlı hörmət hissi azdır. Əgər hansı ailədə bir-birinə hörmət varsa, kişi qadının nüfuzunu gözləyirsə, o zaman çox da problem yaşanmır”.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

Ekspert bununla yanaşı qeyd edib ki, ümumiyyətlə, ailə münaqişələrinin yaranmasına hər zaman kişilər səbəb olmur: “Bəzən qadın tərəfindən kifayət qədər diqqətin göstərilməməsi, ailədəki psixoloji məqamlar, qadının müəyyən ifadələr, xüsusən də söyüş işlətməklə kişini zorakılıq törətməyə təhrik etməsi də zorakılıq hallarının baş verməsinə səbəb olur. Doğrudur, heç kim heç kimə qarşı zorakılıq törətməməlidir. Amma bəzən qadınların özləri zorakılığın baş verməsi üçün münbit şərait yaradırlar. Burada psixoloji faktorlar, kənar müdaxilələrin edilməsi də ailələrdə münaqişələrin yaranmasına səbəb olur. Ailə münaqişələrinin əksəriyyətində kənar müdaxilə amili mühüm rol oynayır”.

### Ekspert rəyi...

■ **Məsələnin psixoloji tərəflərinə toxunan psixoloq Vəfa Rəşidova isə bildirib ki, ailədaxili zorakılıq hallarında bəzən hər iki tərəf də günahkar olur:**

“Deyirlər ki, son vaxtlar zorakılıq çoxalıb. Əslində isə zorakılıq həmişə olub. Əgər ailədə zorakılıq varsa, burada hər iki tərəfin də rolu var. Ancaq təbii ki, bu həmişə belə olmur. Ümumiyyətlə, zorakılıq arzuolunmaz bir haldır və xüsusilə də, ailədə zorakılığa yer yoxdur. Əgər bir ailədə zorakılıq varsa, deməli, bu ailə sağlam mövqedə deyil. Eyni zamanda ailə üzvlərindən birində və ya hər ikisində psixoloji problem var. Psixi sağlamlığı yerində olmayan şəxsin zorakılığa meyilli olması isə təbiidir. Digər tərəfdən, bu kimi hallar ailədəki uşaqlara da ciddi təsir göstərir. Ailədə zorakılıq görən qadının böyütdüyü uşaq cəmiyyətə faydalı olmur. Təbii ki, burada da istisnalar yox deyil. Bəzi qadınlar zorakılığa məruz qalsalar da, xaraktercə möhkəm olur və buna görə də, ailədə vəziyyətə nəzarət etməyi, uşaqlarına dəstək olmağı bacarırlar. Yəni, onlar uşaqlarını ataya qarşı mənfi fikirlərlə doldurmur, əksinə bütün gücləri ilə ailələrini xilas etməyə çalışırlar. Bax, belə ailələrin uşaqları cəmiyyətə faydalı olurlar. Digər bir ailə növündə isə ana zorakılığa məruz qaldıqda depressiyaya düşür və əgər belə demək mümkünsə, həyatdan əlini üzür. Belə ailədə böyüyən uşaq da cəmiyyətdə uğur qazanmaq istəmir, ya da uğur qazanmaq istəyir, ancaq bunu necə edəcəyini bilmir. Çünki valideyn ailədə vəziyyətə nəzarət etmir və ən əsası, uşağa dəstək olmur. Bu şəkildə isə ailədə ancaq aqressiv fərdlər formalaşır. Nəticədə, belə ailədə böyüyən uşaq ya ailədə gördüyü zorakılığı başqasına tətbiq edir, ya da cəmiyyətdə cinayət yolunu tutur”.

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ Türkiyə Böyük Millət Məclisində (TBMM) Plan və Büdcə Komissiyasının müzakirələri zamanı Ədalət və İnkişaf Partiyası ilə (AKP) Cümhuriyyət Xalq Partiyasının (CHP) millət vəkilləri arasında gərginlik yaşanıb. Öncə komissiyanın müzakirələrində iştirak edən Türkiyənin daxili işlər naziri Süleyman Soylu ilə CHP-nin millət vəkillərinin qrup rəhbəri Özgür Özəl arasında mübahisə baş verib. Gərginlik AKP və CHP-li millət vəkilləri arasında əlbəyaxa davaya və yumruqlaşmaya çevirilib.

---

■ “Azərbaycanda hazırda 58 siyasi partiya var. Onlardan 7 siyasi partiya 2020-ci ildə, 2 siyasi partiya isə bu il qeydiyyata alınıb”. Bunu Ədliyyə Nazirliyinin Qeyri-hökumət Təşkilatları ilə iş şöbəsinin rəisi Aslan Hacıyev bildirib. Onun sözlərinə görə, ölkədə 3359 ictimai birlik, 211 fond, 73 həmkarlar ittifaqı, 224 mənzil mülkiyyətçiləri müştərək cəmiyyətləri var. Şöbə rəisi deyib ki, son 5 ildə vətəndaş cəmiyyətlərinə 900 milyon manatdan çox məbləğ 10 minə yaxın layihə üzrə ayrılıb.

---



■ Gəncədə bıçaqlanma hadisəsi baş verib. Hadisə Üzeyir Hacıbəyov küçəsində yerləşən kafedə qeydə alınıb. 1981-ci il təvəllüdlü Hüseynov Bəhmən Məhərrəm oğlu bıçaq xəsarəti ilə xəstəxanaya yerləşdirilib. Onun vəziyyətinin kafi olduğu bildirilir. İlkin məlumata görə, o, 2003-cü il təvəllüdü oğlu Namiq Hüseynov tərəfindən bıçaqlanıb. Hadisənin baş vermə səbəbləri araşdırılır.

---

■ “5 ildən sonra narkotik istifadəçiləri əgər yenidən bu vasitələri qəbul etmirsə, narkotik istifadəçisi kimi qeydiyyatdan çıxarılır”. Bunu Səhiyyə Nazirliyi Respublika Narkoloji Mərkəzinin baş direktoru Orxan Cəfərov deyib. O bildirib ki, 2020-ci ildə 2723 nəfər narkotik istifadəçisi kimi qeydiyyatdan çıxarılıb: “Rəsmi qeydiyyatda olan 33 788 narkotik istifadəçisindən 618 nəfəri qadındır”.

---

■ SSRİ-ni yenidən bərpa etmək mümkün deyil. Bunu Kremlin mətbuat katibi Dmitri Peskov bildirib.“ABŞ dövlət katibinin müavini Viktoriya Nuland yaxşı başa düşür ki, SSRİ-ni yenidən bərpa etmək mümkün deyil”, - deyə Kremlin sözçüsü vurğulayıb. Qeyd edək ki, V. Nuland ABŞ hakimiyyətinin Rusiya Prezidenti Vladimir Putinin Sovet İttifaqını yenidən bərpa etmək səylərindən qorxduğunu açıqlayıb.

## Bizim səfir

# Kuba Azərbaycan sərmayəsi üçün cəlbedici ölkədir

***Bu günlərdə Kubada keçirilən “II Kuba-2021” biznes-forumunda adada Xarici İnvestisiya ilə yeni Biznes İmkanları Portfoliosunun təqdimatı keçirilib. Portfolio Azərbaycandan olan iş adamları üçün nə dərəcədə maraqlıdır? Kubanın ölkəmizdəki səfiri Alfredo Nieves Portuondo ilə müsahibədə məhz bu suallara cavab tapmağa çalışdıq:***

- Əminəm ki, ticarət sahəsində çoxlu ümumi cəhətlərimiz var. Adada investisiya imkanları hər iki xalq üçün çox sərfəli ola bilər. Şübhəsiz, Kuba Azərbaycan və regionun digər dövlətlərinin sərmayə yatırması üçün çox cəlbedici ölkədir.

***- Ölkənizdə daha çox hansı sektorların xarici sərmayəyə ehtiyacı var?***

- Bu münasibətlə Portfolioda 678-dən çox layihə təqdim olunur ki, bu da əvvəlkilərlə müqayisədə 175 layihə çoxdur və dəyəri 12,5 milyard dollardan artıqdır. Biz qida istehsalı, bioəczaçılıq sənayesi, turizm və enerjiyə diqqət yetiririk. Bu sahələr daha geniş şaxələndirilib və daha fəal xarici kapitalı cəlb etməyə, biznesi asanlaşdırmağa, bürokratik əngəlləri aradan qaldırmağa və yeni imkanları təşviq etməyə çalışır. Bundan əlavə, hökumətimiz tərəfindən təsdiq edilmiş iqtisadi-sosial inkişaf strategiyası ilə ifadə olunur.

***- Portfoliodakı hansı yeniliklər var?***

- Biz burada yerli hökumətlər tərəfindən maliyyələşdirilən 60 layihəni və daha az investisiya xərci ilə daha böyük imkanların, məsələn, heç bir xərci olmayan 70 idarəetmə müqaviləsi və qoyulacaq ümumi kapitalın 500 min dollardan daha az olduğu otuza yaxın variantın mövcudluğunu görürük. Bu dizayn bələdiyyələrə ərazilərdən istehsal və xidmətləri artırmaq üçün iqtisadi məsələlərdə daha çox qərar qəbuletmə səlahiyyəti verəcək. Bundan başqa, ölkəmizin irəli sürdüyü inkişaf strategiyası çərçivəsində ilk dəfə olaraq, portfolioda ən yüksək təmsilçiliyə malik sektor 164 variantla qida istehsalıdır. Portfolioda 2030-cu ilədək Milli İnkişaf Planında müəyyən edilmiş dörd strateji istiqamət üzrə layihələr, eləcə də ətraf mühitə təsir, turizm, sənaye, əczaçılıq, mədənçilik, neft və enerji proqramları da daxildir.

> “ *Adada investisiya imkanları hər iki xalq üçün çox sərfəli ola bilər*

***- Enerji sektoru çox mühümdür və Azərbaycan iqtisadiyyatı üçün də maraq kəsb edir. Havana və Bakı bu sahədə əməkdaşlığı davam etdirə bilərmi?***

- Enerji sektorunda bərpaolunan enerji mənbələrinin təşviqi üçün əlavə stimullar mövcuddur ki, onlar fəaliyyətə başladıqdan sonra istisnalarla xüsusi vergi rejiminə daxil ola bilərlər. Fəaliyyət göstərən müəssisələri olan sərmayəçilər üçün bu enerji mənbələri ilə bağlı layihələrin həyata keçirilməsi və onların elektrik enerjisi haqqının azaldılması sxemi də təsdiqlənib.

***- Biznesin təşviqi ilə bağlı başqa siyasət həyata keçirilir, yoxsa sadəcə sizin qeyd etdiklərinizdir?***

- Təbii ki, daha çox var. Məsələn, xarici kapitalın qeyri-dövlət idarəetmə formaları ilə əlaqəsi ilə bağlı olanlar dəyişdirilir ki, sərmayədarlar özəl sektorla əlaqə qura bilsinlər və kənd təsərrüfatı kooperativlərinin prinsipləri isə yenidən tənzimlənir ki, onlar da bu rejimlərdə 100 faiz Kuba kapitalı ilə dövlət şirkəti və ya kommersiya şirkətinə sahib olmaq öhdəliyi olmadan birbaşa xarici investisiya üsullarında birbaşa iştirak edə bilsinlər. Başqa bir yenilik Kuba Mərkəzi Bankından icazə alındıqdan sonra həyata keçirilə bilən xarici investisiya üsulları ilə xaricdə bank hesablarının açılması ilə bağlı məhdudlaşdırıcı siyasətin aradan qaldırılmasıdır. Maliyyə sektoruna investisiyaların stimullaşdırılması tədbirləri kimi kapital, texnologiyalar, yeni məhsul və xidmətlər, habelə bazarlara çıxış təmin etməli olan korporativ bankların, ikinci dərəcəli korporativ bankların, investisiya banklarının və bank olmayan maliyyə müəssisələrinin iştirakı nəzərdə tutulur.

***- Kuba dünyada yüksək qiymətləndirilən turizm məkanıdır. Turizm sektorunda bu Biznes Portfoliosunda hansı yeniliklər var?***



**Alfredo Nieves Portuondo,**
Kubanın ölkəmizdəki səfiri

- Düzdür, Kuba turizmi xarici investisiyalar üçün çox cəlbedicidir. Yeni Portfolioda cəmi 106 layihə var ki, onlardan 27-si birgə müəssisə, ümumi fondla 5 assosiasiya müqaviləsi, 65 otel müqaviləsi və marinalar, yerləşdirmə və istirahət mərkəzləri üçün 9 idarə və marketinq müqaviləsi mövcuddur. Qastronomiya fəaliyyətinin maliyyələşdirilməsi ilə xidmət administrasiyası müqavilələri, eləcə də icarə və dəniz assosiasiyaları qiymətləndirilir və biz otellərdə sağlamlıq və həyat keyfiyyətinin rifah səviyyəsini artırmaq üçün İctimai Səhiyyə Nazirliyi (Minsap) ilə birlikdə işləyirik. Qeyd etmək lazımdır ki, yeni layihələrdən başqa, Kuba investisiya üçün cəlbedici struktura və 30 ildən artıq təcrübəyə malikdir. Qastronomiya fəaliyyətinin maliyyələşdirilməsi ilə xidmət administrasiyası müqavilələri, habelə icarə və dəniz assosiasiyaları üçün müqavilələr qiymətləndirilir və biz Səhiyyə Nazirliyi ilə birlikdə ölkədə sağlamlıq və həyat keyfiyyətinin rifah səviyyəsini artırmaq üçün birgə çalışırıq. Yeni layihələrdən başqa, Kuba investisiya üçün cəlbedici struktura və 30 ildən artıq təcrübəyə malikdir. Hazırda Kubanın otel sektorunda 70 mindən çox otaq var və 1990-cı ildən bəri ziyarətçilərin sayında 9,1 faiz artımla, 2018-ci ildə 4,7 milyon ziyarətçi ilə turist qəbulunda ən böyük artım olub. Kubanın 30 hava limanından ibarət infrastrukturu var. Onlardan 10-u beynəlxalq xidmətlər göstərir və ölkəyə xarici turizm üçün əsas qapı sayılır. Həmçinin bütün sahil xətti boyunca 10 beynəlxalq dəniz və 3 kruiz terminalı var. Eynilə Kuba turizmi bəşəriyyətin 9 mədəni irsi, 6 biosfer qoruğu, millətin 17 qeyri-maddi mədəni irs abidəsi və 14 təbiət parkı kimi bir çox güclü tərəflərə malikdir.

Ümumiyyətlə, Kuba haqqında və ayrıca, Azərbaycanla əlaqələrə dair məlumat almaq üçün Kuba Respublikasının Xarici Ticarət və Xarici İnvestisiyalar Nazirliyinin www.inviertaencuba.mincex.gob.cu ünvanında çox cəlbedici, interaktiv veb platforması var və ora dünyanın istənilən yerindən daxil olub, geniş məlumat almaq mümkündür...

✍ ***Vüsal***

# Almaniyada "işıqfor" hökuməti

***Avropanın iqtisadi cəhətdən 1-ci, dünyada isə öncül sıralarında dayanan Almaniyada Merkel dönəmi rəsmən başa çatdı. Almanların yeni knasleri var - Olaf Şolts. Bundestaqda dünən keçirilən səsvermədə Olaf Şolts kansler seçilib. 707 deputatdan 395-i O. Şoltsun namizədliyinin lehinə səs verib.***



Olaf Şolts, 2018-ci ilin əvvəlində CDU / CSU və Sosialistlərin hazırkı koalisiya hökumətində maliyyə naziri və vitse-kansler olub.

Hələ beş ay əvvəl sosial demokratların siyahısında Angela Merkeldən boşalacaq Almaniya kansleri postuna əsas namizəd kimi orta yaşlı və zəif lideri Olaf Şolz olacağı heç kim tərəfindən qəbul olunmurdu. Lakin sentyabrın sonunda Şolz şəxsən öz partiyasını Merkelin partiyası üzərində qələbəyə apardı.

## Merkel dönəmi başa çatdı...



## Yeni dövr

Dünya siyasətinə yön verən, Avropanın siyasi və iqtisadi iradəsini əks etdirən Almaniyanın yeni kansleri və hökumətinin tərkibi istər Cənubi Qafqaz, istərsə də dünyanın bir çox bölgələri üçün olduqca maraqlıdır. Siyasi dairələr yeni hökumət başçısı və onun komanda üzvləri ilə təmaslarını necə quracağı, bundan sonra hansı siyasi konyukturanı müəyyənləşdirməli olduqlarına dair baş sındırırlar.

Qeyd edək ki, bu hökumət indiyə qədər 4 dəfə seçkilərdə qalib gələn Angela Merkelin kabinetini əvəz edəcək. Sentyabrın sonunda Bundestaqa keçirilən son seçkilərdə Merkel iştirak etməyib. Üç il əvvəl o, 2021-ci ildə təqaüdə çıxacağını elan edib. Nəticədə Merkel 16 il 15 gün Almaniya kansleri vəzifəsində çalışıb. Əgər yeni koalisiya ilə bağlı danışıqlar cəmi 12 gün də davam etsəydi, o, Helmut Kolu geridə qoyaraq Otto fon Bismarkdan sonra ən uzun müddət xidmət edən ikinci Almaniya kansleri kimi tarixə düşəcəkdi. Son seçkilərin qalibi Olaf Şolzun rəhbərlik etdiyi sosialistlər olub və onlar Yaşıllar və sağçı liberal Azad Demokratlar Partiyası ilə yeni hökumət koalisiyası yaratmağa qərar veriblər. Almaniyada bu koalisiya "işıqfor" (Ampel-Koalition) adlanır - üç partiyanın simvollarının rənglərinə görə.

Koalisiya üzvləri yeni hökumətin proqramını yalnız noyabrın sonunda razılaşdıra bildilər və dekabrın 4-6-da üç partiya bir-birinin ardınca koalisiya sazişini təsdiqlədi.

### Qətiyyətli Annalena

**Bu hökumətdə xarici işlər naziri postunu Yaşıllar Partiyasının həmsədri, 41 yaşlı Annalena Berbok tutacaq. O, eyni zamanda, həm bu vəzifədə ilk qadın, həm də Almaniya tarixində ən gənc xarici işlər naziri olacaq.**



Sosialist Olaf Şolz xarici siyasət məsələlərində ehtiyatlı və çevik danışsa da, Berbok həm seçkilərdən əvvəl, həm müxalifətdə olanda, həm də ondan sonra Rusiyanı kəskin tənqid edib, Çinlə qarşıdurmadan qətiyyətlə danışıb. Yaşıllar ümumiyyətlə öz xarici siyasətini Avropa dəyərlərinə, vətəndaş azadlıqları və insan hüquqlarının qorunmasına əsaslanaraq quracaqlarına söz verirlər.

Müxalifətdə olan zaman  Berbok hökuməti Rusiyanın "Şimal axını" qaz kəmərinin ikinci mərhələsinin tikintisini dərhal dayandırmağa çağırıb (Aleksey Navalnının zəhərlənməsinə cavab olaraq). Berbock həm də əvvəlki alman hökumətlərinin daha çox ticarət etməyi xoşladığı Çinlə döyüşməyə hazırdır, vaxtaşırı nəyisə yumşaq şəkildə qınayır.

"Biz avropalılar özümüzü aşağılamamalıyıq. Dünyanın ən böyük bazarlarından biriyik və Çin Avropa bazarı ilə çox maraqlanır", - Berbok Berlin qəzeti "Tageszeitung"a müsahibəsində deyib.

### Kansler nə edə bilər

**Alman müşahidəçilərinin fikrincə, Almaniyanın xarici siyasətinin bəyanatlarda deyil, əməllərdə necə olacağı, sosialist kansler Şolzun Annalena Berbokun fəaliyyət azadlığını nə dərəcədə məhdudlaşdıra biləcəyindən və buna hazır olmasından asılıdır.**

Angela Merkelin dövründə onlar qeyd edirlər ki, xarici siyasət kansler kabinetində formalaşıb və xarici işlər naziri (sonuncu sosialist Heyko Maas idi) sadəcə icraçı olub.

İstənilən halda, yeni hökumətdə olan tərəflər razılaşıblar və koalisiya sazişinə yazılıb ki, onların xarici siyasətdə prioritetləri bütün Avropa İttifaqının hərəkətlərini əlaqələndirməkdir.

Bəzi şərhçilərin fikrincə, yaşılların Almaniyanın xarici siyasətinə təsiri, partiyanın ikinci həmsədri Robert Habek İqtisadiyyat və İqlim Naziri postunu aldıqdan sonra daha da güclənəcək. Avropanın ən böyük ixracatçısı olan Almaniyanın güclü xarici siyasət aləti məhz iqtisadi rıçaqlardır.

Almaniya Prezidenti Frank-Valter Ştaynmayer, artıq yeni kansler Olaf Şolts hökumətinin bütün üzvlərini təsdiq edib. Almaniya Nazirlər Kabinetinə Sosial-Demokrat, Yaşıllar, Azad Demokratik (Liberallar) partiyaları daxil olub. Sosial-demokratlar 7, Yaşıllar 5, liberallar isə 4 nazir portfelinə sahib olub.

Şimal Axını-2 layihəsinin kəskin əleyhdarı olan Annalena Berbok xarici işlər naziri təyin olunub. İqtisadiyyat işləri və iqlim naziri, eləcə də vitse-kansler Robert Habek, maliyyə naziri Kristian Lindner, müdafiə naziri Kristina Lambrext, ətraf mühit naziri Şteffi Lemke, kənd təsərrüfatı naziri Cem Özdəmir olub. Almaniya tarixində ilk dəfə daxili işlər naziri vəzifəsinə qadın təyin olunub. Bu nazirliyə Nensi Fezer başçılıq edəcək.

Əmək məsələləri və sosial işlər naziri Hubertus Hayl öz vəzifəsində qalıb. Tikinti işləri üzrə nazir Klara Hayvits, iqtisadi əməkdaşlıq məsələləri üzrə və Almaniyanın inkişafı naziri Svenya Şultse, səhiyyə naziri isə Karl Lauterbax olub.

Yeni hökumətlə bağlı digər dövlət başçılarının siyasi mövqeləri də aydındır.

Məsələn, Rusiya Prezidenti Vladimir Putin Almaniyanın yeni kansleri Olaf Şoltsla konstruktiv əlaqələr qurmaq istəyir. Bu barədə Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.

"Biz davamlılığa, prezidentlə yeni kansler arasında konstruktiv münasibətlərin inkişaf edəcəyinə, Almaniya tərəfinin ən mürəkkəb fikir ayrılıqlarını həll etmək üçün dialoqa alternativin olmadığı anlayışından çıxış etməyə davam edəcəyinə ümid edirik", - deyə Peskov qeyd edib.

### Olaf Şolts kimdir

**İndi 63 yaşı olan Olaf Şolts Hamburqda doğulub, burada hüquqşünas təhsili alıb və keçən əsrin səksəninci illərində orada əmək hüququ üzrə ixtisaslaşaraq hüquq bürosunda işləməyə başlayıb.** Olaf Şolts eyni zamanda səksəninci illərdən siyasətə qoşulub, lakin 1998-ci ildə yalnız qırx yaşında Sosial Demokrat Partiyasından Bundestaqın üzvü seçilib.

Dörd il sonra o, baş katib, yəni sosialist kansler Gerhard Schroeder yanında SPD aparatının rəhbəri olub. O, Angela Merkelin ilk koalisiya hökumətinin üzvü idi - orada əmək və sosial təminat naziri idi. 2011-2018-ci illərdə  Hamburqun meri olub.

Olaf Şolts və həyat yoldaşı Britta Ernst özlərini tamamilə siyasətə həsr ediblər. Ernst Brandenburq Ştat Hökumətində təhsil naziridir, onların uşaqları yoxdur.

### İlk səfər Parisədir

**Almaniyanın yeni kansleri Olaf Şolts ilk səfərlərini Paris və Brüsselə edəcək. Bu barədə Almaniya hökumətinin mətbuat xidməti açıqlama yayıb. Şolts dekabrın 10-da Parisə və Brüsselə səfər edəcək.**

Parisdə Şolts Fransa Prezidenti Emmanuel Makronla görüşəcək. Brüsseldə isə o, Avropa Komissiyasının sədri Ursula von der Leyenlə, Avropa İttifaqı Şurasının sədri Şarl Mişel və NATO Baş katibi Yens Stoltenberqlə danışıqlar aparacaq. Bu arada, Almaniyanın yeni kansleri Olaf Şolts bu vəzifəyə seçildikdən sonra qeyri-adi hədiyyə alıb. Cənubi Şlezviq Seçicilər Assosiasiyasının Danimarka-Alman siyasətçisi Ştefan Zaydler (Almaniyadakı Danimarka və Friz azlıqlarının maraqlarını təmsil edən partiya) siyasətçiyə alma səbəti verib.

"Şholts-un ??böyük vəzifələri var, ona görə də knaslerin çiçəklərə deyil, sağlam gücə ehtiyacı var" -  deyib Zaydler. Deputat qeyd edib ki, Şolts ona təşəkkür edib və gülümsəyib: "O şimal almanıdır və əslində mənim kimi o da çox sakitdir".

Rusiya Almaniyanın yeni rəhbərliyinin ən azı əvvəlki rəhbərliyin başlatdığı layihələrin, xüsusən də, "Şimal axını 2" layihəsinin həyata



keçirilməsindəki siyasətin davamlılığını gözləyir. Bu barədə Qazeta.Ru-ya Federasiya Şurasının Beynəlxalq Əlaqələr Komitəsinin üzvü Sergey Tsekov bildirib. "Ümumiyyətlə, istərdim ki, Avropa qitəsində və bütövlükdə dünyada təhlükəsizliyin möhkəmləndirilməsi baxımından münasibətlər daha sıx, dostluq, daha koordinasiyalı olsun. İnanmaq istərdim ki, Şolts ilə belə bir münasibət qurmaq mümkün olacaq".

Federasiya Şurasının beynəlxalq məsələlər komitəsi sədrinin birinci müavini Vladimir Cabarov bildirib ki, yeni hökumət son onilliklər ərzində iki ölkə arasında münasibətlərdə yığılıb qalmış çoxlu sayda problemlərlə üzləşəcək. "Bununla belə, ümid edirik ki, hökumətin başında duran sosial-demokratlar bu partiyaya xas olan xoş ənənələri xatırlayaraq bizimlə normal konstruktiv münasibətləri bərpa edəcək və ikitərəfli əlaqələrin inkişafına töhfə verəcəklər. Xüsusilə, "Şimal axını 2" mümkün qədər tez işə salınacaq ki, bunda ilk növbədə almanlar bizim kimi maraqlıdırlar", - deyə parlamentari bildirib.

✍ *Azad Əliyev*

---

Problem

# Məşhurların dərman reklamları



**Son vaxtlar tanınmış, məşhur şəxslərin sosial şəbəkə hesablarından müxtəlif dərman və qida əlavələrini reklam etməsi cəmiyyətdə brmənalı qarşılanmır. Onlar bu sahənin mütəxəssisi olmadan çoxsaylı izləyicisi olan səhifələrində çəkinmədən müəyyən məbləğ qarşılığında insanlara dərmanlarla bağlı tövsiyyələr verirlər.**

İnsanları çaşdıran bu cür reklamların sonradan yarada biləcəyi fəsadları isə nə reklamverən, nə də reklamedən tərəfi maraqlandırmır.

■ **Yeri gəlmişkən, Milli Məclisin Sosial siyasət komitəsinin sədri Musa Quliyev də mövzu ilə bağlı mətbuata açıqlamasında bildirib ki, dərman reklamı bir çox ölkələrdə bütövlükdə qadağan edilib. Onun sözlərinə görə, Azərbaycanda dərman haqqında qanun qəbul ediləndə buna qadağa qoyulmuşdu:** "Sonradan görünür müəyyən təsirlər oldu ki, bu qadağalar yüngülləşdi və yalnız həkim resepti ilə yazılan dərmanların reklamına qadağa qoyuldu.

Dərmanlarla qida əlavəsi qarışıb və çox vaxt qida əlavəsini dərman adı ilə reklam edirlər. Bu da çox təhlükəlidir. Vətəndaşları və xəstə insanları çaşdırır. Onları daha çox dərman olmayan vasitələrə yönəldir. Bundan başqa, qida əlavələrinin qiyməti dərman vasitələrinin qiymətindən xeyli bahadır".

Komitə sədri qeyd edir ki, istər reseptlə satılmayan dərman vasitələrinin, istərsə də qida əlavələrinin hər hansı reklamına qadağa qoyulmadığına görə, reklam edən şəxsə hüquqi cəhətdən ittiham irəli sürə bilmərik: "Mənəvi cəhətdən tənqid edə bilərik ki, bu doğru deyil, insanları çaşdırır. Yaxşı olardı ki, vətəndaşlarımız o reklamlarla deyil, hansısa dərmana ehtiyac olduqda həkimlərinin məsləhəti əsasında qəbul etsinlər. Ümumiyyətlə, reseptsiz dərman alınmasının tərəfdarı deyiləm. İstənilən halda ən yüngül soyuqdəymə, başağrısı və.s hallarda belə həkim məsləhəti ilə dərman alınması daha doğrudur".

> *Dərman bazarına nəzarət etməli olan Milli Məclisin Səhiyyə komitəsinin əksər üzvləri özləri aktiv dərman biznesi ilə məşğuldurlar*

> *Əsas diqqətimizi kimyəvi tərkibli dərmanlarının reklamına yönəltməliyik*

■ **Məsələ ilə bağlı hafta.az-a danışan Azad İstehlakçılar İctimai Birliyinin sədri Eyyub Hüseynov da qeyd edib ki, Azərbaycanda bəzi işbazlar əhalinin güvənindən istifadə edərək, zərərli dərman vasitələrinin reklamını həyata keçirirlər:** "Təəssüf ki, bəzi işbazlar insanların güvənindən istifadə edərək, zərərli və keyfiyyətsiz dərman vasitələrinin reklamını həyata keçirir və bundan külli miqdarda gəlir əldə edirlər. Ümumiyyətlə, sosial şəbəkə və televiziyalar üzərindən reklam olunan dərman vasitələrinin 70 faizi saxtadır və insan orqanizminə çox zərərlidir".

E.Hüseynov vurğulayıb ki, belə dərman vasitələrinin reklamını həyata keçirən qurum da məsuliyyət daşıyır: "Vətəndaş TV-də və ya hansısa məşhur tərəfindən reklam olunan dərmanı alıb, ziyanını görürsə, məhkəməyə müraciət edə bilər. Daha sonra məsələ araşdırılmalı, reklam edən şəxs məsuliyyətə cəlb olunmalıdır. Azad İstehlakçılar Birliyi dərman vasitələrinin reklamının mümkün qədər azaldılması istiqamətində işlər aparır. Amma bəzi televiziyalar, eləcə də sosial şəbəkələrdə sırf gəlir əldə etmək üçün dərmanları reklam etməyə davam edirlər. Yəni dərmanlar yerli və xarici kanallarda, eləcə də sosial şəbəkələrdə,kütləvi informasiya vasitələrində çox aqressiv şəkildə reklam olunur. Bütün bunlar dərman istehlakçılarının, yəni alıcılarının həyatında öz mənfi izlərini qoyur. Dərman yeganə maldır ki, onu insanlar özxoşuna almır, göstərişlə alırlar. Lakin aqressiv reklam həkimlərin də, istehlakçıların da "başın yeyir" və ağır xəstəliyə tutulmuş insan hansı dərmanı desən, sonuncu qəpiyini ona verib alacaq. Vətəndaş bilməlidir ki, dərmanla bağlı reklamların hamısı demək olar ki, aldadıcıdır və ona görə də mən ona aldadıcı reklam deyirəm. Düşünürəm ki, bunlara qadağa qoyulmalıdır. Qida əlavələrini həkimlərin reseptə yazması qadağan olundu, bu çox yaxşı haldır və Qida Təhlükəsizliyinin nəzarəti altına keçirildi. Qida Təhlükəsizliyi Agentliyi bu sektora ciddi nəzarət edir və düşünürəm ki, dərman sahəsindəki problem də həll olunmalıdır".

Ekspert vurğulayıb ki, bu aqressiv reklamın nəticəsidir ki, Azərbaycan aptek şəbəkəsinə görə bəlkə də dünyada birinci yerdədir: "Bunun nəticəsidir ki, klinikalarda insanlar növbəyə durublar. Yəni kim necə bildi o cür bunu reklam etməklə həkimləri və istehakçıları aldadır.

Onu da qeyd edək ki, dünyada saxta dərman dövriyyəsi təxminən otuz faiz həcmindədir. İnternet üzərindən alınan dərmanların təxminən yetmiş faizi saxta olur. Baxmayaraq ki, onlar hamısı ciddi reklam olunur. Reklamın biznesdə çox böyük rolu var, istehlakçını aldatmaq, ondan pul qoparmaq yollarından biridir.

Düşünürəm ki, hökumət elə bir iş aparmalıdır ki, dərman reklamına qadağa qoyulsun. Hələ ölkədə reklam olunmayan dərmanların problemi də var.

Amma burada bir məsələni də əlavə edim ki, dərman bazarına nəzarət etməli olan Milli Məclisin Səhiyyə komitəsinin əksər üzvləri özləri aktiv dərman biznesi ilə məşğuldurlar. Sizcə, belə bir mühitdə dərman reklamının qadağasına rəvac verən qərarların qəbulu mümkündürmü? Əlbəttə ki, yox".

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən tibb məsələləri üzrə mütəxəssis İlqar Hüseynli isə deyir ki, Azərbaycanda dərman vasitələrinin reklamı qanunla qadağandır:**

"Burada biz iki məsələyə diqqət ayırmalıyıq. Son dövrlər dərman vasitələri kimi istifadə olunan, lakin dərman vasitəsi kimi qəbul olunmayan xeyli sayda qida əlavələri, bioloji aktiv maddələr var. Bu məhsullar mövcud qanunun təsiri altına düşmür. Məsələn, müəyyən siroplar var ki, televiziyalarda reklam olunur. Cəmiyyət həmin siropları dərman kimi qəbul edir, amma bu vasitələrin tərkibində kimyəvi formulalar olmadığına görə qanunla reklamı mümkün sayılır. Bununla bağlı sosial şəbəkələrdə aparılan reklamlara bəzi hallarda müdaxilə etmək dövlətin də gücündə olmur və ya dövlətin gücündə olmuş olsa belə, müəyyən mənalarda məsələyə göz yumulur. Əgər biz görsək ki, bu reklam elementlərinin içərisində bilavasitə kimyəvi formula tərkibli, məhz Səhiyyə Nazirliyi tərəfindən qeydiyyatdan keçən xüsusi dərman vasitələrinin reklamı gedir, bu təbii ki, inzibati xəta sayılır. Yəni bununla bağlı qanunvericilikdə inzibati xəta nəzərdə tutulub. Bilirsiniz ki, bizdə enerji içkilərinin reklamı da qadağandır. Təəssüflər olsun ki, buna da əməl edilmir və iri reklam lövhələrində müxtəlif enerji içkilərinin reklamını görürük".

Bununla bağlı mövcud qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsinə ehtiyac olub-olmamasına gəlincə, ekspert hesab edir ki, buna zərurət yoxdur: "Biz əsas diqqətimizi kimyəvi tərkibli dərmanlarının reklamına yönəltməliyik. Əsas qorxumuz bu olmalıdır. Belə hallara qarşı mübarizə aparmalıyıq. Qida əlavələri insan orqanizmi üçün təhlükəli sayılmır".

✍ *Sevinc*

# Pensiyaya kimlər daha tez çıxa bilər...

## Araşdırma

***Azərbaycanda bəzi şəxslərin pensiya kapitalından vaxtından əvvəl istifadə etməsinə imkan yaradılması təklif olunur. Təklifə əsasən, pensiya kapitalı çox olan insanlara belə bir şəraitin yaradılması məqsədəuyğun sayılır. Qeyd edək ki, hazırda bir sıra ölkələrdə pensiya yaşı yüksək olsa da, insanlara müəyyən şərtlər daxilində vaxtından əvvəl əmək pensiyasına çıxmaq hüququ tanınır. Məsələn, Qərb ölkələrinin əksəriyyətində pensiya yaşının yüksək olmasına baxmayaraq, həmin ölkələrdə hökumətin müəyyənləşdirdiyi maksimum əmək stajını çalışmış insanlara könüllü olaraq erkən pensiyaya çıxmaq hüququ verir.***

Tutaq ki, Belçikada 60 yaşı tamam olmuş şəxs tələb olunan iş stajına malikdirsə, Çexiyada 25 il sığorta stajı varsa və pensiya yaşına 3 il qalırsa, istənilən şəxs könüllü pensiyaya çıxa bilər. Sadəcə, erkən pensiya halında tam pensiyanın müəyyən faizi vətəndaşa ödənilir. Bu məbləğ bəzi ölkələrdə 90, bəzi olkələrdə 95 faizdir. Pensiya yaşı tamam olduqda isə həmin şəxs üçün pensiya yenidən hesablanır. İtaliyada 2019-cu ildən tətbiq olunan pensiya qanunvericiliyinə əsasən ölkədə pensiya yaşı 67 yaşdan 62 yaşa endirilib. Belə ki, 62 yaşa çatan və 38 il əmək stajı olan kişilər, 58 yaşa çatan və 35 illik əmək stajı olan qadınlar pensiyaya çıxa biləcəklər. Kişilər 42, qadınlar isə 41 illik əmək stajı ilə bu yaşdan əvvəl də pensiyaya çıxmaq hüququ əldə ediblər.

Xatırladaq ki, "Əmək pensiyaları haqqında" qanunun 7-ci maddəsinə əsasən, pensiya yaşına çatmış şəxsin fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə sığorta stajından asılı olmayaraq, bu pensiya təminatına imkan vermədikdə isə azı 25 il sığorta stajı olduqda (2017-ci il iyulun 1-dək yaşa görə əmək pensiyası təyin edilmiş şəxslər istisna olmaqla) yaşa görə əmək pensiyası hüququ var. "Əmək pensiyaları haqqında" qanunun 7-ci maddəsində nəzərdə tutulmuş kişilərin yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılır. Bununla da Azərbaycanda 1 iyul 2020 - 30 iyun 2021 tarixində kişilərin pensiya yaşı 65 il , qadınların pensiya yaşı isə 62 il olub. 1 iyul 2021 - 30 iyun 2022-ci il tarixində kişilərin pensiya yaşı 65 il, qadınlar üzrə 62 il 6 ay olacaq.

Yeri gəlmişkən, hazırda ölkədə orta aylıq pensiyanın həcmi 213 dollardır. Bu baxımdan Azərbaycan MDB ölkələri arasında Qazaxıstan və Rusiyadan sonra üçüncü yerdə dayanır. İndi Azərbaycanda orta ömür uzunluğu 71,4 yaşdır. Bu MDB ölkələri arasında müvafiq reytinq üzrə ən aşağı göstəricilərdən biridir. BMT-nin Əhali Fondunun proqnozlarına görə, yaxın illər ərzində Azərbaycanda pensiya yaşlı insanların sayı əhəmiyyətli dərəcədə artacaq və buna orta ömür uzunluğunun çoxalması səbəb olacaq.

Bəs, görəsən, hazırda Azərbaycanda kimlərin rəsmi pensiya yaşından əvvəl əmək pensyasına çıxmaq hüququ var? Bu siyahının genişləndirilməsinə ehtiyac varmı? Ümumiyyətlə, bu istiqamətdə beynəlxalq praktikanın tətbiqi mümkündürmü?



*"Artıq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində bu məsələ ilə bağlı müzakirələr aparılır*

*Hazırda mövcud qanunvericilik vətəndaşlara vaxtından əvvəl pensiyaya çıxmağa icazə vermir*

*Yaşa görə əmək pensiyasının yaş həddi 2027-ci ildə qadınlar və kişilər üçün bərabər olacaq*

■ **Məsələni hafta.az-a şərh edən Milli Məclisin deputatı, Əmək və Sosial Siyasət Komitəsinin üzvü Vüqar Bayramov bildirib ki, bu yaxınlarda pensiya kapitalından vaxtından əvvəl istifadə ilə bağlı təklif sözügedən Komitənin iclasında onun elə özü tərəfindən verilib:** "Mən təklif etdim ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən xüsusi ilə çox pensiya kapitalı yığımı olan vətəndaşlara belə bir imkan verilsin. Məsələn, ABŞ-da pensiya kapitalı çox olanlar daha tez müraciət edib pensiya alma imkanına malik olurlar. Son məlumata görə, artıq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində bu məsələ ilə bağlı müzakirələr aparılır. Bu daha çox minimum pensiya kapitalı yığmış vətəndaşlara tətbiq edilə bilər. Hələ ki, məsələ müzakirə səviyyəsindədir".

### Təklif qəbul olunarsa

**V.Bayramov vurğulayır ki, indiki halda 144 ay pensiya müddəti kimi götürülür: "Yəni 12 il x 12 ay. Bu isə 144 ay edir. Bu gün kişilər 65 yaşda pensiyaya çıxırlarsa, müzakirə olunur ki, vətəndaş 65 yox, 60 yaşda pensiyaya çıxmaq istəyirsə, 144 deyil, bu zaman həmin beş il üçün nəzərdə tutulan 144-ün üzərinə (5x12) 60 ay gələcək.**

Bu rəqəm 204 aya bölünəcək. Bu imkan verə bilər ki, vətəndaş 5 il tez pensiyaya çıxsın. Amma artıq bu 144-ə yox, 204-ə bölünməklə aylıq pensiya məbləği müəyyənləşə bilər. Əgər qanun qəbul olunarsa, bu, minimum pensiya kapitalı yığmış vətəndaşlarımıza şamil olunacaq. Yəni pensiya kapitalı minimum kapitaldan çox olan vətəndaşlara şamil ediləcək".

Deputat qeyd edir ki, təklif qəbul olunarsa, pensiya yaşından gec pensiyaya çıxanlar daha çox pensiya ala biləcəklər: "Digər tərəfdən isə ola bilər ki, vətəndaş işləyir, 65 yaşda pensiya almaq istəmir. Hansısa vətəndaş pensiyaya 70 yaşında çıxmaq istəyərsə, bu halda onun aylıq pensiya məbləği 144-ə deyil, 144-dən 60 ay çıxmaqla 84-ə bölünəcək. Nəticədə gec pensiyaya çıxan vətəndaş aylıq olaraq daha çox pensiya almış olacaq. Əsas odur ki, nazirlik tərəfindən bu ideya dəstəklənir və gözlənilir ki, bu istiqamətdə rəsmi müzakirə növbəti dövrdə daha aktiv olacaq".

### Beynəlxalq praktikadan istifadə mümkündürmü?

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən iqtisadçı-ekspert Eldəniz Əmirov deyib ki, hazırda mövcud qanunvericilik vətəndaşlara vaxtından əvvəl pensiyaya çıxmağa icazə vermir: "Bu məsələ parlamentin də gündəmindədir.** Dünya təcrübəsində belə bir praktika var ki, insanlar lazımi qədər pensiya kapitalı formalaşdırdıqdan sonra onun müəyyən hissəsindən müəyyən məqsədlər üçün istifadə edə bilərlər. Tutaq ki, kreditlərin ödənilməsi, kommunal xərclərin qarşılanması və s. Hazırda Azərbaycanda yalnız müəyyən kateqoriyaya aid olan işçilərin vaxtından əvvəl pensiyaya çıxmaq hüququ var. Bu böyük əhali kütləsi içərisində çox kiçik paya mənsub olan insanlara aid edilir. Beynəlxalq təcrübədə isə pensiya ilə bağlı müxtəlif konfikurasiyalar var. Məsələn, vaxtından əvvəl pensiyaya çıxmaq, pensiya kapitalından istifadə,özəl pensiya fondları və s. Bu təcrübələrin Azərbaycanda tətbiqi üçün hər bir istiqamətin özünəmüvafiq şərait yaradılmalıdır ki, həmin təcrübə ölkəmizdə tətbiq olunsun".

### Mövcud siyahı kifayət qədər genişdir

■ **Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının rəhbəri Sahib Məmmədov hafta.az-a deyib ki, Azərbaycan qanunvericiliyinə əsasən, yaşa görə əmək pensiyasının yaş həddi 2027-ci ildə qadınlar və kişilər üçün bərabər olacaq:** "Hazırda kişilər üçün artıq 65 yaşdır. Qadınlar üçünsə hələ ki, 62 yaş 6 aydır. Bu o şəxşlərdir ki, həmin yaşa çatanda 25 illik sığorta stajı və yaxud da müəyyən olunmuş həddə pensiya yığım kapitalına əsasən, əmək pensiyasına çıxırlar. Güzəştli şərtlərlə əmək pensiyasına çıxanlara gəlincə, məsələn, bu kateqoriyaya ağır iş şəraitində işləyənlərə aid edilir. Tutaq ki, yeraltı işlər.

Bu sahədə çalışanlar 12 il yarım stajı olduqdan sonra 10 il daha tez əmək pensiyasına çıxa bilərlər. Bundan başqa, hüquq-mühafizə orqanlarıdır ki, onlarla da bağlı müəyyən yaş hədləri müəyyənləşdirilib. Və çoxuşaqlı analar da vaxtından əvvəl əmək pensiyasına çıxa bilərlər və s. Yəni, bu siyahı kifayət qədər genişdir. Siyahını nəyin hesabına artırmaq olar? Düşünürəm ki, ağır fiziki əməkdirsə, bu siyahıda var, tutaq ki, şəxş neft platformasında və ya zərərli kimyəvi məhsullar istehsal edən zavodda çalışır və s. Bununla bağlı Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş geniş bir siyahı var".

Liqa rəhbəri vurğulayır ki, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi tərəfindən müzakirəyə çıxarılan bir layihə mövcuddur. Həmin layihə zərərli və ağır əmək şəraitində çalışan şəxslər üçün qanunvericilikdə dəyişikliklərin edilməsindən bəhs edir: "Bu, tamamilə başqa məsələdir. Bizi də müzakirələrə dəvət ediblər və biz də həmin sənədə etirazımızı bildirmişik. Həmin layihədə stajların dəyişdirilməsi və s. məsələlər var. Məlumat üçün bildirim ki, sovet vaxtında 1 və 2 saylı siyahılar vardı. 1 saylı siyahı daha ağır işlərdə çalışanları əhatə edirdi - onlara 10 il, 2 saylı siyahıdakı işçilərə isə pensiya yaşından 5 il əvvəl pensiyaya çıxmaq imkanı tanınırdı. İndi bu bizdə artırılıb və biz az da artırmaq planları var. Əslində bu gün siyahıların dəqiqləşdirilməsinə ehtiyac var. Yeni peşələr ortaya çıxıb. Tutaq ki, bir sexdə eyni şəraitdə işləyən iki nəfər var, birinin işinin adı bir cürdür, o birinin işinin adı fərqldir. Həmin peşələrdən birinin adı siyahıda var, digərinin adı yoxdur, amma eyni iş şəraitində işləyirlər.

Nazirlik bunları dəqiqləşdirmək istəyirdi, stajlar məsələsinə yenidən baxmaq istəyirdi. Ən əsas mübahisə yenə də deyirəm, eyni əmək şəraitində işləyən, hətta bəzən eyni işi görən, sadəcə peşə adında cüzi fərq olan işçilərlə bağlıdır ki, bu mübahisə məhkəmələrə qədər gedib çıxır. Xüsusilə indi müxtəlif peşələr ortaya çıxıb və peşə standatları da sona qədər müəyyən olunmayıb".

✍ *Sevinc*

**Bir müddət öncə sosial şəbəkələrdə üzərində Xarıbülbül simvolu olan corab şəkilləri yayıldı və bu hal bir sıra istifadəçilər tərəfindən etiraza səbəb oldu. Çoxları "Corabb." brendi ilə istehsal olunmuş ayaq geyimi üzərində qələbəmizin simvolu olmasını şəhidlərimizə hörmətsizlik olaraq gördü. Corabların harada istehsal olunması, yaxud xaricdən idxal edilməsi ilə bağlı çoxlu söz-söhbət dolaşdı. Bəzi məlumatlara görə, "Xarıbülbül corabları" azərbaycanlı iş adamları tərəfindən Çində sifariş edilib, istehsal olunandan sonra Azərbaycana gətirilib.**

# Xarıbülbül simvolunu ucuzlaşdıranlar

Bundan əvvəl Vətən müharibəsinin qəhrəmanlarından olan topçu Vüsal Şahkərimovu məşhurlaşdıran fotonun spirtli içki şüşəsinin üzərində vurulması sosial şəbəkələrdə birmənalı qarşılanmamışdı. Belə hallar artdıqca qabaqlayıcı tədbirlər görmək zəruri hala çevrilir. Qanunvericilikdə bununla bağlı hansı dəyişikliklərə ehtiyac var? Belə sahibkarları cəzalar gözləyirmi?

■ **Məsələ ilə bağlı hafta.az-a açıqlama verən hüquqşünas İlqar Musayev söylədi ki, spirtli içki şüşəsinin üzərində topçu Vüsalın fotosunun vurulmasına Vüsal özü etiraz edə bilərdi. Amma Xarıbülbül məsələsi bir qədər fərqlidir:** "Onun əmtəə nişanını almaq mümkün deyil. Xarıbülbül hər kəsin istifadə edə biləcəyi güldür. Onun simvolu ölkəmiz üçün qələbə rəmzinə çevrilib, buna görə də onu heç kəs patentləşdirə bilməz. Qələbə simvolunu coraba vurmaq isə olmaz. Düşünmürəm ki, dövlət belə məsələ ilə bağlı hansısa addım atacaq. Bu məsələyə fərdi yanaşmaq lazımdır. Xarıbülbüldən istifadəni kütləvi formada qadağan etmək mümkün deyil. Bu simvoldan gərəksiz yerlərdə istifadə edən sənaye müəssisəsinə qarşı tədbir görmək olar. Əgər sən Xarıbülbülü əbədiləşdirmək, yaxud ondan istifadə etmək istəyirsən, onda get kostyum tik və Xarıbülbülü də döşünə vur".

Ekspertin sözlərinə görə, mənəvi dəyəri olan simvolların gərəksiz yerlərdə istifadəsinin qarşısını almaqda dövlətdən çox, sadə vətəndaşların və jurnalistlərin üzərinə böyük yük düşür. Bundan başqa, sözügedən məhsulu istehsal edən sahibkara qarşı məhkəmədə mənəvi təzminat iddiası da qaldırmaq olar:



### Əgər sən Xarıbülbülü əbədiləşdirmək, yaxud ondan istifadə etmək istəyirsən, onda get kostyum tik və Xarıbülbülü də döşünə vur

"Niyə sən qələbəmizin rəmzi, şəhidlərimizin qanı ilə çiçəkləyən Xarıbülbülü corabın üzərinə vurursan? Bu məni sarsıdıb". Bu iddia ilə hər bir Azərbaycan vətəndaşı məhkəməyə şikayət edə bilər. Məhkəmədə iddianı 2 formada qaldırmaq olar:

1. Xarıbülbül simvolunun corabların üzərinə vurulması qadağan edilsin.
2. Hər hansı vətəndaş iddia qaldırdısa, ona vurulan mənəvi sarsıntının məbləği müəyyən edilib məhkəmədə sahibkardan tutulması təmin edilsin.

Mənəvi zərərin hesablanması məsələsinə gəldikdə isə ekspert hesab edir ki, burada da mövzuya fərdi yanaşılır. Burada zərər vuranın şəxsiyyəti, zərər vurulanın şəxsiyyəti və zərər əsas götürülür:

"Bir insanın övladı başqa birinin ucbatından avtoqəzada dünyasını dəyişir. Ona dəyən mənəvi zərəri ölçmək qeyri mümkündür. Simvol məsələsinə gəldikdə isə, onun mənəvi dəyərini məhkəmə özü ölçür. Burada zərər vuranın şəxsiyyəti, zərər vurulanın şəxsiyyəti və zərər əsas götürülür. Bizdə məhkəmə rekord mənəvi zərər iddiasını İlhamə Quliyevanın Nazpəri Dostəliyevaya başlatdığı məhkəmə prosesində 50 min manat məbləğində qiymətləndirib".

✍ *Banu*



■ **"Məlum olduğu kimi ötən həftə Ermənistan tərəfi Azərbaycan Respublikasının işğaldan azad olunan digər müəyyən ərazilərinin mina sahələrinin formulyarlarını da Azərbaycan tərəfinə təqdim edib.**

Mina sahələrinin formulyarlarında adətən ərazinin koordinatları, basdırılmış minaların növləri, sayları, ara məsafələri, basdırılma və gizlətmə qaydalarına dair məlumatlar qeyd olunur. Lakin bildirmək istərdim ki, təqdim edilmiş formulyarlarla ilkin tanışlıq onların etibarsız, yararsız və qeyri-dəqiq olması təəssüratını yaradır".

Bunu Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov deyib.



■ **Türkiyə Prezidenti Rəcəb Tayyip Ərdoğan Qətər səfərindən dönərkən yerli jurnalistlərə açıqlama verib. Hafta.az-ın "Sabah" qəzetinə istinadən verdiyi xəbərə görə, Ərdoğan Ukrayna və Rusiya arasında gərginliyi aradan qaldırmaq üçün Türkiyənin vasitəçilik etməyə hazır olduğunu diqqətə çatdırıb.**

"Biz Ukraynada və ona yaxın ərazilərdə vəziyyəti izləyirik. Rusiya ilə Ukrayna arasında gərginliyin artmasını istəmirik, əksinə regionda sabitliyin qalmasını istəyirik. Son həftələr artan gərginliyin de-eskalasiyası üçün dəstəyimizi verməyə və dialoq qurmağa yardımçı olmaq niyyətindəyik. Hər iki tərəfin razılığı ilə dəstək, vasitəçilik yaxud digər istənilən formatda yardım göstərməyə hazırıq", - deyə Türkiyə Prezidenti söyləyib.



■ **"YAŞAT" Fondu tərəfindən müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi istiqaməti üzrə şəhid ailə üzvlərinin 3 012 və yaralıların 2 525 müraciəti olmaqla ümumilikdə 5 537 müraciət təmin edilib. Bunu "YAŞAT" Fondunun bir illik hesabat tədbirində Fondun rəhbəri Elvin Hüseynov bildirib.**

Onun sözlərinə görə, ümumilikdə 154 ağır yaralı müalicə edilməsi məqsədi ilə Türkiyəyə göndərilib, onlardan 115-si ölkəyə qayıdıb:

"Hazırda 39 ağır yaralının müalicəsi Türkiyədə davam edir.

"YAŞAT" Fondunun dəstəyi ilə ölkəyə gətirilən türkiyəli həkimlər tərəfindən 150-dən çox yaralı müayinə edilib.



■ **"Postmüharibə dövründə ümumilikdə şəhid ailəsi üzvü və müharibə əlili olan 35 min şəxsə 41 min xidmət göstərilib". Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev bildirib.**

Onun sözlərinə görə, bu kateqoriyadan olan 20 min şəxsə sosial ödəniş təyin edilib: "Bir şəxsə bir neçə ödəniş də təyin olunub. 10202 şəxsə 20341 sosial ödəniş təyin edilib. Bunların əksəriyyəti - 7716-sı şəhid ailəsi üzvüdür. Bu il 2600-ə yaxın mənzil şəhid ailəsi üzvü və müharibə əlillərinə verilib. Reabilitasiya müəssisələrində 1300-ə yaxın şəxsə psixoloji dəstək göstərilib. 1082 şəxsə 10779 reabilitasiya vasitəsi, 1000-dən çox mühərrikli oturacaq, müxtəlif əzalarını itirən 163 müharibə əlilinə 174 elektron protez verilib.



■ **"İşğal dövründə həmin ərazilərdə qanunsuz fəaliyyət göstərən şirkətlər olub". Bbunu Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov ötən gün Beynəlxalq Ədalət Məhkəməsinin müvəqqəti tədbirlərinə dair qərarı ilə bağlı mətbuat brifinqində deyib.**

Nazir müavini bildirib ki, işğal vaxtı konkret şirkətlərin qanunsuz işləri ilə bağlı araşdırmalar aparılır: "Bu şikayətlər həmin şirkətlərin aktivlərinə qarşı olacaq. Konkret halda belə şirkətlər müəyyən ediləcək. Şirkətlərin yurisdiksiyası konkretləşdirilərək addımlar atılacaq. Çünki bu qərarlar kağız üzərində qalmamalıdır. Buna görə də həmin şirkətlərin müəyyən edilməsi üçün konkret işlər aparılır".



■ **"Erkən yaşdan məktəbəqədər təhsilə ayrılan müddət, məktəblinin, şagirdin məktəbdə aldığı dərs və həmin dərsin məzmunu çox vacibdir". Bunu Təhsil naziri Emin Əmrullayev bildirib.**

Onun sözlərinə görə, bütün inkişaf etmiş ölkələrdə 3 yaşdan başlayaraq 100 faizlik əhatəlilik görürük: "İnkişaf etmiş ölkələrin bir çoxunda 12-13 illik təhsil müddəti var, öyrənmə saatının həcmi isə 20-30 faiz çoxdur. Bunları bir gün ərzində həll etmək olmur, bunlar uzunmüddətli dəyişimdir.

Biz bunu dərhal başlamalıyıq ki, uzunmüddətli dövr artıq başlasın. 20-30 illik perspektiv haqqında danışanda deyilir ki, bu gün də inkişaf etməliyik. Təbii ki, hansısa qısamüddətli müdaxilələr də vacibdir.

## Yubiley

**Əfsanəvi «Qarabağ bülbülləri» kollektivinin yaradıcısı və bədii rəhbəri Murad Rzayevin 75 yaşı tamam oldu. Ömrünün 50 ildən çoxunu mədəniyyətimizin, milli musiqimizin, muğamımızın inkişafına həsr edən sənətkar bu günə qədər fəxri ad almayıb. Onun bəstələdiyi "Bayatı-Şiraz" improvizasiyası Azərbaycan musiqisinin himni adlandırılır. Bu il, həm də «Qarabağ bülbülləri» kollektivinin yaranmasının 50 ili tamam olur. Hər iki yubileylə bağlı Murad Rzayevlə söhbətləşdik:**



# Sənət dostlarım Prezidentə müraciət edib...





**Murad Rzayev,**
"Qarabağ bülbülləri" kollektivinin yaradıcısı və bədii rəhbəri

> *Əgər Ümummilli Lider sağ olsaydı, çoxdan fəxri ada layiq görülmüşdüm*

***- Murad müəllim, özünüzü oxucularımıza necə təqdim edərdiniz...***

- Mən- Murad Yunis oğlu Rzayev 1947-ci il dekabrın 7-də Ağdam rayonunda anadan olmuşam. Orta təhsilimi Ağdam şəhər 3 saylı məktəbdə almışam. Ağdam teatrında fəal iştirak etmişəm. Daha sonra Musiqi Texnikumuna sənədlərimi verdim və qəbul olundum. Musiqi Texnikumunda təhsilimi başa vurduqdan sonra, Cənubi Qafqaz komsomol məktəbinə daxil oldum. Ali təhsilimi isə Üzeyir Hacıbəyov adına İncəsənət Universitetinin Mədəni-maarif fakültəsində davam etdirdim. İlk əmək fəaliyyətimə Güllücə kəndində fəhlə kimi başlamışam. Sonralar Mədəniyyət evində bədii rəhbər olmuşam. 1970-ci illərdən başlayaraq, 50 ilə yaxın dövrdə Ağdam Uşaq Yaradıcılıq Mərkəzinin direktoru işləmişəm. İlk yaradıcılıq gecəm Ağdam Mədəniyyət evində keçirilib. Bu tədbirlər 2007 və 2012-ci illərdə Mahnı Teatrında təşkil edilib, telekanallar vasitəsilə nümayiş olunub. Orada tanınmış insanlar, sənət adamları, millət vəkilləri iştirak edirdilər. "SSRİ Maarif xadimi", "Respublikanın maarif xadimi", "İlin müəllimi", "Ustad sənətkar", "Əmək veteranı"və s. adlara layiq görülmüşəm. Neçə-neçə beynəlxalq festivalın laureatı adını qazanmışam. Bu il mənim 75, «Qarabağ bülbülləri» ansamblının isə 50 yaşı tamam olur.

***- «Qarabağ bülbülləri» ansamblı necə yarandı?***

- Uşaq Yaradıcılıq Mərkəzində işlədiyim dövrdən həmişə bir kollektiv yaratmağı arzulayırdım. 1971-ci ildə, nəhayət, "Qarabağ bülbülləri" adlı kollektivi yaratmağa nail oldum. Bu kollektiv qısa zamanda böyük şöhrət qazandı. Onun haqqında çoxlu kitab yazılıb, filmlər çəkilib. "Qarabağ bülbülləri", "Əks-səda", "Uzun ömrün akkordları", "Qaçaq Nəbi", "Azərbaycan - 60", "Mən mahnı qoşuram", "Qalib səs", "Nəğməkar torpaq" və s. bədii və sənədli filmləri qeyd edə bilərəm. Anarın, Sabir Rüstəmxanlının, Nüsrət Kəsəmənlinin, Surxay Əlibəylinin, Məleykə Göyçəlinin, Elnur Baxışın, Ramiz Heydərin, Germanın kitablarında bizim haqqımızda yazılıb.

***- «Qarabağ bülbülləri» ansamblının yetirmələrindən kimlərin adlarını qeyd edə bilərsiniz?***

- "Qarabağ bülbülləri"nin üzvləri olan çoxsaylı məşhur xanəndə və müğənnilərimiz var. Onların sırasında Xalq artistləri Aygün Bayramova, Nəzakət Teymurova, Cabir Abdullayev, Feyruz Səxavət; Əməkdar artistlərdən Teymur Əmrah, Sevinc Sarıyeva, Ramiz Paşayevin adlarını çəkə bilərəm. Həmçinin muğam müsabiqəsinin laureatlarından Murad Laçınlı, Səma Sultan, Zülfiyyə Cəbrayılzadə, Dürdanə Keytiyeva, Ülkər Orucova da "Qarabağ bülbülləri"nin yetirmələridir. Tanınmış müğənnilərdən Xatun, Tacir Şahmalıoğlu, Nihat Məlikli kimi adları da qeyd edə bilərəm.

***- Ansamblın uğurları haqqında danışardınız...***

- "Qarabağ bülbülləri" ansamblı yarandığı dövrdən bir çox ölkələrdə, o cümlədən keçmiş SSRİ-yə daxil olan 15 respublikanın hər birində konsert proqramları ilə çıxış edib. Həmçinin Almaniya, Bolqarıstan, İranda da konsertlərimiz olub.

Moskvanın məşhur Qurultaylar sarayında da dəfələrlə çıxış etmişik. Bu çıxışlar gurultulu alqışlarla qarşılanırdı. Həmin zalda Sov.İKP MK-nın Baş katibi L.İ. Brejnev qarşısındakı çıxışımız yaddaqalan idi. Konsert proqramlarının ən yaxşı hissəsinə çıxışlarımızı salırdılar.

***- Bu gün Azərbaycan muğamına göstərilən diqqətdən razısınızmı?***

- Sovetlər dönəmində muğamımızı təbliğ etmək çox çətin idi. Konsertlərə gedəndə həmişə bizə deyirdilər, ancaq mahnı oxuyun, muğam ifa etməyin. Məşqlərdə onların dediyi kimi, çıxışları hazırlasam da, səhnəyə çıxanda arada muğam ifasına yer verirdim. Bu hərəkətimə görə danlansam da, muğamımızın təbliği üçün bacardığım qədər səy göstərirdim. Kremldə Azərbaycandan ən çox çıxış edən «Qarabağ bülbülləri» olub. SSRİ-nin Böyük Teatrında, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində Rəşid Behbudov, Müslüm Maqomayev, Zeynəb Xanlarova ilə birlikdə çıxış etmişik. Bəzən elə olurdu ki, onlar dəvət olunmurdu, ancaq biz çıxış edirdik. Orada olarkən Azərbaycan haqqında soruşduqda bir çoxu ölkəmizi tanımırdı. Ağdam, «Qarabağ bülbülləri» deyəndə hamı bizi və ölkəmizi tanıyırdı. Müstəqillik qazandıqdan sonra isə muğamın yenidən dirçəlməsi, onun yaşadılması və tanıdılması, təbliği Birinci vitse-prezident Mehriban xanım Əliyevanın adı ilə bağlıdır. Onun muğam sənətinin inkişafı ilə bağlı müstəsna xidmətləri nəticəsində gənc nəslin unudulmaqda olan muğam sənətimizə sevgisi daha da artdı. Neçə illərdir, güclü səslərə malik muğam ifaçılarının müsabiqəsi təşkil olunur. Bu müsabiqələrdə qeyd etdiyim kimi, bizim də yetirmələrimiz iştirak edir.

***- Ağdama, Şuşaya səfər etməyi planlaşdırırsınız?***

- Bu illər ərzində həmişə doğma Ağdamımızda, Şuşada konsert proqramları ilə çıxış etməyi arzulamışıq. İndi bu arzumuz artıq reallaşır. Ağdama da, Şuşaya da sərbəst səfər etmək imkanlarımız var. Allah cənab Prezident İlham Əliyevə uzun ömür, cansağlığı versin. Ümummilli lider Heydər Əliyev hər zaman mənə böyük diqqət və qayğı göstərib. Heydər Əliyev ovaxtkı Lenin adına sarayda hər konsertdən sonra mədəniyyət xadimləri ilə görüşündə bir masa arxasında oturanda məni hər zaman öz yanında əyləşdirirdi. Deyirdi ki, «Qarabağlı, gəl mənim yanımda əyləş». Ulu Öndər «Qarabağ bülbülləri»ni həddən artıq çox istəyirdi.

***- Nə üçün fəxri ad ala bilmirsiniz...***

- Əgər Ümummilli Lider sağ olsaydı, çoxdan fəxri ada layiq görülmüşdüm. İndi bu məsələdə mənə bir az ögey münasibət göstərilir. Mədəniyyət Nazirliyinə ünvanladığım müraciətlərə 15-ə qədər cavab gəlib. Hamısında da gələn dəfə fəxri adlar veriləndə nəzərə alınacağı qeyd olunur. Neçə illərdir ki, fəxri adlar veriləndə nədənsə diqqətdən kənarda qalıram. SSRİ dövründə müxtəlif adlara layiq görülsəm də, müstəqillik illərində mədəniyyətimizin inkişafındakı xidmətlərim nəzərə alınmayıb. İyirmi günə yaxındır, bir çox mədəniyyət xadimi, deputatlar 75 illik yubileyimlə bağlı fəxri ad verilməsi üçün Prezidentə müraciət ediblər. Bu müraciətin cavabını gözləyirik.

Həmişə deyirdim ki, Şuşa qayıtsın, orada konsert verək. Səhhətimlə bağlı Şuşaya gedə bilmədim. Bununla belə, Şuşadakı festivalda ilk olaraq mənim bəstələdiyim "Bayatı-Şiraz" improvizasiyası səsləndi. Daha sonra Prezident çıxış etdi. Özüm gedə bilməsəm də, Şuşaya sənətim gedib. Azərbaycan muğam tarixində ilk improvizasiyanı mən etmişəm. Aqil Abbas deyirdi ki, "Bayatı-Şiraz" improvizasiyası Azərbaycanın misiqi himninə çevrilib. Bir çox bəstələrimi İlhamə Quliyeva, Flora Kərimova, Mirzə Babayev, Zöhrə Abdullayeva, Oqtay Ağayev kimi Xalq artistləri ifa ediblər. Mənim ən uğurlu işim "Bayatı-Şiraz" improvizasiyasıdır. Azərbaycanın bütün tədbirlərində bu parça səsləndirilsə də, çoxu onun mənim əsərim olduğunu bilmir. Hazırda tələbələrim incəsənət mərkəzlərində ustad, müəllim kimi fəaliyyət göstərirlər.

✍ *Azad Əliyev*

## Təhlükə

# Narkomanların 45 faizi qadınlar və uşaqlardır

***Son rəsmi məlumatlara görə, Azərbaycanda narkomanların 40-45 faizi qadın və uşaqlardır. Bu rəqəmlər bəşəriyyəti çıxılmaz yola sürükləyən bəlanın nə qədər təhlükəli olduğundan xəbər verməyə kifayət edir. Hazırda bütün dünyada narkomaniya ilə mübarizə məqsədilə sosial şəbəkələr üzərindən çağırışlar edilir, eyni zamanda, genişmiqyaslı maarifləndirmə tədbirləri həyata keçirilir. Buna baxmayaraq narkotik aludəçiliyinin yaş həddi enməkdə davam edir.***

■ **Respublika Narkoloji Mərkəzinin psixoloqu Ramin Allahverdiyev hafta.az-a açıqlamasında bildirdi ki, son dövrlər narkotik vasitələrin istifadəsi halları azyaşlılar arasında xeyli artıb. Azyaşlıların maddə istifadəsini erkən aşkar etmək sonrakı mərhələ üçün çox mühümdür:**

"Öncə valideyn övladı ilə bağlı müəyyən informasiyaya sahib olmalıdır. Bilirik ki, maddə istifadəsi zamanı şəxsdə 3 sferada - fizioloji, psixoloji və sosial yöndə dəyişiklik olur. Valideyn hiss etməlidir ki, övladında hansı dəyişiklik meydana gəlir. Simptomlar nə qədər tez aşkarlanarsa, o şəxsi maddədən daha tez uzaqlaşdırmaq mümkün olar".

Azyaşlıları narkotik maddə asılılığına sövq edən səbəblərə gəldikdə isə psixoloq hesab edir ki, səbəblər müxtəlif olsa da müalicə və reablitasiya yolları kompleks iş tələb edən oxşar prosesdir: "Necə edək ki, övladlarımız maddədən istifadə etməsin? Bu, kompleks iş olub, uşaqlıqdan başlayan prosesdir. Uşağı narkotik vasitəyə travmalar, valideynlər arasındakı boşluq, mükafatlandırma və cəzalandırmanın düzgün həyata keçirilməməsi apara bilər. Boşanmış ailələrdə doğulan, ailədə şiddət görən uşaqlarda bu problemə daha çox rast gəlinir. Hansı ki, belə uşaqlar bu vasitə ilə özlərinə komfort zona yaratdıqlarını düşünürlər".

Mütəxəssisin sözlərinə görə şəxsi təcrübəsində daha çox həyat yoldaşı tərəfindən və ailədaxili problemlər ucbatından narkotik vasitələrə qurşanan qadınları daha çox görüb: "Mənim xəstələrimin çoxu həyat yoldaşları tərəfindən birbaşa, yaxud dolayı yolla maddəyə yönləndirilib. Səbəblər müxtəlifdir. Bu, maraq dairəsi, dost çevrəsi ilə bağlı ola bilər. Bir ara çıxmışdı ki, arıqlamaq üçün qadınlara metamfetamin verirlər. Düzünü desəm, mən bu reallıqla tanış olmamışam. Elə bir xəstəm olmayıb. Amma ola bilər ki, belə səbəblər də insanları narkotik vasitəyə sövq etsin. Həmçinin yanlış maarifləndirmə, aldadılma, həyat yoldaşı ilə arasında



baş verən konflikt qadınları bu yola sürükləyər. Əvvəl də qeyd etdiyim kimi, maddə istifadəsinin qarşısını almaq üçün istifadəçilərin, müalicəsi komanda şəklində aparılmalıdır. Burada psixoloq, psixoterapevt, nevroloq, narkoloq, başlıcası, ailə birgə mübarizə aparmalıdır. Ailənin dəstəyi ona görə mühümdür ki, dəyərlər sistemi möhkəm olduqda maddə istifadəsindən uzaqlaşmaü daha effektiv olur. Bütün yükü maddə istifadəçisinin çiyinlərinə atıb, "Sən güclü olmalısan, iradəli olmalısan" kimi fikirlər səsləndirmək yanlış olardı. Bu, heç bir effekt vermir".

> *Boşanmış ailələrdə doğulan, ailədə şiddət görən uşaqlarda bu problemə daha çox rast gəlinir*

> *Qadınlar arasında işsizlik faizinin aşağı salınması, həm də narkomaniya ilə mübarizədə bizə böyük dəstək olacaqdır*

■ **Növbəti həmsöhbətimiz olan kriminalist Teymur Baloğlanov da son dövrlərdə qadınlar və uşaqlar arasında narkotik vasitələr qəbul edənlərin sayının çoxalmasını təəssüf hissi ilə vurğuladı. Həmçinin o, dövlətimizin bu bəlaya qarşı apardığı mübarizəni yüksək qiymətləndirdi:** "Hesab edirəm, 40-45 faizlik statistika həqiqəti əks etdirir. Son vaxtlar narkotiklə mübarizə fonunda Daxili İşlər Nazirliyi və digər müvafiq orqanların apardığı əməliyyatlar nəticəsində xeyli iş görülüb. Düşünürəm ki, bu kateqoriyadan olan şəxslərin narkotika qurşanmasının bir neçə səbəbləri var. Hazırda sosial şəbəkələr üzərindən belə maddələrin satışını həyata keçirənlərə rast gələ bilinir.

Hətta onlar arasında məsuliyyətə cəlb olunanlar da var. Təəssüf ki, narkotiklərin təbliği gedir. İlk növbədə, bunların qarşısı alınmalıdır. Uşaq yaşlarından başlayaraq narkomaniyanın fəsadları ilə bağlı təbliğat gücləndirilməlidir. Maarifləndirmə aparılmalıdır. Uşaqlarla iş aparılan zaman, ilk növbədə, valideynlərin üzərinə böyük məsuliyyət düşür. Gənclər arasında internetdən asılılıq yaranıb, sosial platformalardan qurulan əlaqə onların psixologiyasına təsir edir". T.Baloğlanov qadınlar arasında narkotik vasitə aludəçiliyinin çoxalmasını isə ilk növbədə işsizlik faktoru ilə əlaqələndirir: "Qadınların iş yeri ilə təmin olunması dövlətin öhdəliyinə düşən məsələdir. Onların əmək fəaliyyətinə cəlb edilməsi üçün tədbirlər görülməlidir. Qadınlar arasında işsizlik faizinin aşağı salınması, həm də narkomaniya ilə mübarizədə bizə böyük dəstək olacaqdır".

Sonda isə nəzərinizə çatdıraq ki, rəsmi statistikaya görə, bir narkotik istifadəçisi il ərzində 5-17 şəxsi narkomanlığa cəlb edə bilir. Buna görə də həm ailədə, həm də cəmiyyətdə narkomaniya dəhşətinin qarşısını almaq üçün hər birimiz ayıq-sayıq olmalıyıq.

✍ *Banu*

# Valideynlərin peyvənd qorxusu

## COVID - 19

***Bu gün dünyada 18 yaşından aşağı şəxsləri peyvənd proqramlarına daxil edən ölkələrin sayı get-gedə artır. Bir müddət öncə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) "Pfizer-BioNTech" peyvəndinin 12 yaşdan yuxarı uşaqlar üçün uyğun olduğuna qərar verib.***



Buna baxmayaraq, müxtəlif ölkələrdə 12 yaşdan yuxarı uşaqların peyvənd olunmaları məsələsi müxtəlif amillər üzrə həyata keçirilir. Amerikada 12 yaşlı uşaqlar üçün bu ilin may ayında "Pfizer-BioNTech" peyvəndi təsdiq edildikdən sonra, onun tətbiqinə iyun ayında başlanıldı. Çində isə ölkədə istehsal olunan "Sinovac" peyvəndi 3 yaşdan yuxarı olan hər kəs üçün təsdiqlənib. İyun ayından etibarən, artıq ölkədə 3-17 yaşlı uşaqların bir hissəsinə "Sinovac" peyvəndi vurulub. Bəs bizdə azyaşlıların peyvən olunmaları ilə vəziyyət necədir? Ümumiyyətlə, valideynlər bu məsələdə nə qədər maraqlıdırlar?

■ **Mövzu ilə bağlı hafta.az-a açıqlama verən həkim-pediatr Vaqif Qarayev deyir ki, bizdə valideynlər övladlarını peyvənd etdirməkdən çəkinirlər. Əgər müəyyən məhdudiyyətlər olmasaydı, heç özləri də vaksin olunmazdılar:** "COVID-19 peyda olunduğu gündən etibarən verilən bütün müsbət və mənfi proqnozlar özünü doğrultmayıb. Əvvəl deyirdilər ki, uşaqlar yoluxmur. Sonradan gördük ki, qadın xəstəliyə yoluxubsa, hətta ana bətnində dölə keçə bilir. Elə ölkəmizdə də uşaqlarda koronavirusdan ölüm halı baş verib. Düzünü desəm, məktəblərin açılmasının tərəfdarı deyildim, kaş bağlı qalaydı. Bütün dünyada məktəblər açıldıqdan sonra yoluxma çoxaldı. Ardınca isə qərar verildi ki, 16-18 yaşarası uşaqlara valideynlərinin razılığı ilə "Pfizer" peyvəndi vurulsun. Hələ eşitməmişəm ki hansısa valideyn övladını peyvənd etdirsin. Türkiyədə belə qərar olsa da, vaksin olunan uşaqların sayı olduqca azdır".

Həkimin sözlərinə görə, azyaşlılar üçün xüsusi peyvəndin hazırlanması müsbət hal olardı. Bu həm də böyüklərə tətbiq olunan peyvəndin azyaşlılarda yan təsirlər yaratmasının qarşısını alar. Həkim güman edir ki, "Pfizer" peyvəndi uşaqlarda bir sıra əks-göstərişlərlə müşahidə oluna bilər:

"Elm adamları arasında belə mülahizə var idi ki, uşaqlar üçün xüsusi vaksin hazırlansın. Açığı, bu məni peyvəndin yan təsirləri baxımından xeyli rahatlatmışdı. Vaksinlər müxtəlifdir. "Pfizer"də orqanizmə yeridilən virus diridir. Ona görə də onun yaratdığı immunitet davamlıdır. Fikrimcə, diri vaksinlərin uşaqlara tətbiqi əlverişli deyil, yan təsirləri çox olacaq. Həkim olaraq tövsiyə edə bilmərəm ki, uşaqlarınıza vaksin vurdurun. Bununla bağlı ortada heç bir nümunə yoxdur. Elə valideynlərdən icazəni də özlərinə "əlyeri" qoyublar. Sabah pis hadisə olarsa, deyəcəklər ki, siz özünüz razılıq vermişdiniz. Bu qəbil ziddiyyətli mülahizələrin fonunda inanmıram ki, hansısa valideyn könüllü şəkildə övladını peyvənd etdirsin".

> *Həkim olaraq tövsiyə edə bilmərəm ki, uşaqlarınıza vaksin vurdurun*

Qeyd edək ki, Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası və TƏBİB-in Elmi Komitəsi tərəfindən birgə qəbul edilən razılaşmaya əsasən, sentyabr ayının 7-dən etibarən, 16-18 yaşlı yeniyetmələrin peyvənd olunmaları üçün vaksinasiyanın səbəbini göstərməklə, valideynlərdən birinin yazılı müraciəti və hər iki valideynin yazılı razılığı tələb edilir. Hazırda 16-18 yaşlı yeniyetmələrin vaksinasiyası mərkəzləşdirilmiş şəkildə Bakı Sağlamlıq Mərkəzində aparılır.

✍ *Banu*

## 2022 - ci il

# Mavi pələng ili

**Nələrə diqqət etməli...**



***Bütün dünyada məşhur olan Çin təqvimində hər ilin öz himayədar heyvanı var. 2022-ci ili Mavi Su Pələngi izləyəcək. Bu əzəmətli və məğrur heyvan taleyimizə təsir edəcək.***

Pələng ili yanvarın 1-də deyil, fevralın 1-də gələcək və 2023-cü il yanvarın 21-dək davam edəcək.

**İlin iki simvolu olacaq:**

***ağac - sabit olmağa kömək edir;***
***su - həssaslıq, rahatlıq və yaradıcı inkişaf verir.***

Pələng insanlarda nikbinlik və qətiyyət oyadacaq, onlar xəyallarına doğru daha sürətlə irəliləyəcək. Bu, Öküzün balanslı və nisbətən sakit ili ilə nəzərəçarpacaq təzad olacaq. Pələng çoxlu dəyişikliklər gətirəcək və bir çox təməlləri məhv edəcək.

İl yenilikçi və aktiv olacaq: bütün qurulmuş adətləri dəyişdirəcək və yeni qaydalar yazacaq qətiyyətli insanlar hakimiyyətə gələcəklər. Deyə bilərik ki, Pələng sevməyi bilənlərə deyil, həyatda arzu olunan yüksəkliklərə çatmağa hazır olanlara himayədarlıq edir.

Pələng sadiq heyvan hesab olunur, buna görə də dünyadakı vəziyyətdən fərqli olaraq, ailə təhlükəsiz qalacaq. Ev rahatlığı, əmin-amanlıq, anlayış və sevgi 2022-ci ildən gözləməli olduğunuz şeylərdir.

Bu ildə astroloqlar parlaq rənglər seçməyi məsləhət görürlər. Pələng hökmdar, azadlıqsevər, zəifliyə dözməyən və lider olmağa üstünlük verən heyvandır. Bu keyfiyyətlərlə enerjinizi doldurmaq istəyirsinizsə, o zaman Yeni il üçün xüsusi qarderob seçməlisiniz.

Qızıl və ya bürünc çalarlar maddi rifahı yaxşılaşdırmağa kömək edəcəkdir. Həyata sevgi cəlb etmək üçün astroloqlar firuzəyi rəngi məsləhət görürlər. Qara və ya mavi paltarlar karyera zirvələrinə çatmağınıza kömək edəcək. Seçməyə dəyməz rənglər qəhvəyi və bənövşəyidir.

2022-ci ildə, nəhayət, uzun müddətdir xəyal etdiyiniz dəyişikliklərə qərar verə bilərsiniz. İş yerini dəyişmək əlverişlidir. Üstəlik, fəaliyyət sahəsini kökündən dəyişə bilərsiniz. Yeni bacarıqlara və ixtisaslara yiyələnməli və irəli getməlisiniz. Bundan əlavə, bu il yeni yerə köçmək uğurlu olacaq. İşdə olduğu kimi: yalnız mənzili deyil, həm də bölgəni dəyişə bilərsiniz.

Pələng inadkar bir heyvandır. Yeni şeylərlə maraqlanmağı sevir və praktiki olaraq qorxu hiss etmir. Su bu xüsusiyyətləri bir qədər yumşaldır. O, hirsi söndürür və sakitləşdirir.

Pələng ili evdə və ya kənarda qeyd oluna bilər. Əsas şərt çox insanın bir yerdə olmamasıdır. Pələng təbiətcə tənhadır və ətrafda sıxlıq olanda özünü narahat hiss edir.

Yeni il süfrənizdə meyvələr olmalıdır - xurma, portağal, naringi. Qəhrəmanımız yırtıcıdır. Beləliklə, ət yeməkləri nə qədər çox olsa, bir o qədər yaxşıdır! Və bu hansı ətdir - dovşan, toyuq, mal əti və ya donuz əti, onun üçün heç bir fərqi yoxdur!

Bununla belə, yaşıl salatlar da diqqətdən kənarda qalmamalıdır. Pələng yaşıllıqlara hörmət edir. Yeməkləri ədviyyatlı budaqlarla bəzəmək təsirli olacaq.

Bu il üçün hədiyyələriniz praktik deyil, necə deyərlər, ruhu əks etdirməlidir. Siyahı heç də kiçik deyil: ətirlər, rəsmlər, bədii kitablar, gözəl çarşaflar, yataq dəstləri, hobbi məhsulları.

✍ *Azad Əliyev*

## HƏFTƏ REYTİNQ

### Həftənin TƏYİNATI



Azərbaycan Prezidenti İlham Əliyev Fərhad Adıgözəlovu Dövlət Sığorta Kommersiya Şirkətinə yeni sədr təyin edib. Yeni sədrin bioqrafiyası ictimaiyyətdə maraq doğurub. F. Adıgözəlov 1977-ci ildə Bakı şəhərində anadan olub. Azərbaycan Beynəlxalq Universitetində maliyyə və kredit istiqaməti üzrə bakalavr dərəcəsi, Azərbaycan Dövlət İqtisad Universitetinin beynəlxalq iqtisadi münasibətlər ixtisası üzrə ikinci ali təhsil alıb və universitetin İstehsal və Xidmət Sahələrinin İqtisadiyyatı və İdarə edilməsi ixtisaslaşması üzrə magistr dərəcəsini fərqlənmə ilə bitirib. 2013-2014-cü illərdə maliyyə nazirinin köməkçisi, 2015-2017-ci illərdə "Azər-Türk Bank" ASC-nin İdarə Heyətinin sədri vəzifələrində çalışıb. 2020-ci ilin sentyabr ayından Milli Depozit Mərkəzinin İdarə Heyətinin sədr müavini təyin edilib.

### Həftənin TƏCRİDİ



BMT-nin Baş katibi Antonio Quterreş koronavirusa yoluxmuş şəxslə təmasda olduğundan özünütəcrid rejiminə keçib. Quterreş dekabrın 9-na qədər öz vəzifələrini evdən icra edəcək. Onun həmin gün növbəti dəfə koronavirus testi verəcəyi gözlənilir. Baş katibin rəsmi nümayəndəsinin müavini Fərhan Xak Quterreşdə koronavirusun heç bir əlamətinin olmadığını bildirib. Onun sözlərinə görə, Baş katibin ilk testi mənfi nəticə verib. Qeyd edək ki, 72 yaşlı portuqaliyalı Antonio Quterreş 2017-ci ilin yanvarın 1-dən BMT-nin Baş katibi vəzifəsini icra edir.

### Həftənin ƏN GÜCLÜLƏRİ



"Amazon"un qurucusu Ceff Bezosun keçmiş həyat yoldaşı, yazıçı Makkenzi Skott "Forbes" jurnalının dünyanın 100 ən güclü qadını siyahısında birinci olub. Bundan əvvəl Angela Merkel 10 il ərzində dünyanın ən nüfuzlu qadınları reytinqinə başçılıq edib. "Forbes" reytinqində ikinci yeri ABŞ-ın vitse-prezidenti Kamala Harris tutub. Onun ardınca Avropa Mərkəzi Bankının rəhbəri Kristin Laqard və "General Motors"un baş direktoru Meri Barra, həmçinin sahibkar və "Microsoft"un qurucusu Bill Qeytsin keçmiş həyat yoldaşı Melinda Qeyts gəlir.

### Həftənin İMTİNASI



Ermənistan parlamentinin sədri Alen Simonyan qalmaqallı video ilə gündəmə gəlib. İlk olaraq teleqram kanallarında yayılan videoda Simonyan tədbirlərin birində bir şəxslə söhbətində erməni əsirlərin artıq onun üçün mövcud olmadığını bildirir. "Hesab edirəm ki, əsirlər mənim üçün artıq mövcud deyil", - deyə Simonyan bildirir. O, həmçinin həmsöhbətinə əsirlərin kimdən ibarət olduğuna dair sual verir və cavabı özü səsləndirir: "Bunlar silahını yerə qoyan, qaçan və azan insanlardır. Mən bunu yüksək səslə deyə bilmərəm. Bu əsirlərin valideynlərinin niyə fəal olmadığı sizi maraqlandırır? Çünki onların yaxınları bilir ki, onlar dezertirdirlər, onlar silahı yerə qoyub, qaçıb və əsir düşüblər".

### Həftənin OTELİ



PSJ-nin ulduzu Lionel Messiyə məxsus Barselona şəhərində yerləşən "MİM Sitges" oteli sökülür. Buna səbəb kimi otelin şəhər standartlarına uyğun olmaması göstərilib. Yaxın günlərdə 77 otaqdan ibarət otel binasının sökuntüsünə başlanılacağı bildirilib.

### Həftənin TƏKLİFİ



Əməkdar artist Cavanşir Məmmədov açıqlaması ilə növbəti dəfə qınaq obyektinə çevrilib. "Tarixin bir günü" verilişində qonaq olan müğənni sənət adamları üçün bank hesabının açılmasını təklif edib. O bildirib ki, insanlardan müğənnilərə yardım üçün pul yığmaq lazımdır.

### Həftənin MÜKAFATÇISI



Türkiyənin nüfuzlu "Altın Kelebek" mükafatlandırma mərasimi keçirilib. Müsabiqədə "Azərbaycanın ən parlaq gənc ulduzu" kateqoriyası üzrə də qalib müəyyənləşib. Bu ada Nahidə Babaşlı layiq görülüb. "Hamıya Azərbaycandan salam gətirdim. Çox sevincliyəm, tikanlı yolun sonu belə bitdi. Ailəmə və mənə dəstək olan hər kəsə təşəkkür edirəm" - deyə o, çıxışında bildirib.

✍ *Azad Əliyev*

# "Bakcell" abunəçiləri üçün "Asan İmza"nı SMS vasitəsilə yeniləmək imkanı Ⓡ




**Bakcell abunəçiləri "Asan İmza" xidmətinin müddətini artıq SMS vasitəsilə uzada bilərlər. Belə ki, "Fərdi", "Biznes" və "Dövlət" tipli "Asan İmza" sertifikatlarına sahib olan bütün Bakcell abunəçiləri "Asan İmza" xidmətini növbəti 3 il müddətinə uzatmaq üçün "8500" qısa nömrəsinə aşağıdakı açar sözlərdən birini SMS vasitəsilə göndərə bilərlər:**

"ferdi" - fiziki şəxslər üçün;

"biznes" - hüquqi şəxslər və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üçün;

«dovlet» - dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün.

"Asan İmza" sertifikatlarının müddətinin SMS vasitəsilə uzadılması xidmətindən Prepaid (əvvəlcədən ödənişli) və Postpaid (sonradan ödənişli) Asan İmza SİM kartlarının mövcud istifadəçiləri yararlana bilər. "Asan İmza" xidmətinin etibarlılıq müddəti haqqında məlumat əldə etmək üçün "8500" qısa nömrəsinə "status" açar sözünü SMS vasitəsilə göndərmək lazımdır. "8500" qısa nömrəsinə göndərilən bütün SMS-lər pulsuzdur.

Nəzərə almaq lazımdır ki, "Asan İmza" xidmətli SİM kartın SMS vasitəsilə uzadılması kifayət etmir, istifadəçilərdən eyni zamanda vergi ödəyicisinin e-taxes.gov.az vahid İnternet portalında onlayn şəkildə "Asan İmza" sertifikatlarının müddətinin bitməsinə 30 gün qalmış "Asan İmza" sertifikatlarını növbəti 3 il müddətinə uzatmaq tələb olunur. "Asan İmza" sertifikatının etibarlılıq müddəti bitdikdən sonra onun onlayn rejimdə uzadılması mümkün olmayacaq və istifadəçi sertifikatı yeniləmək üçün Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti nəzdində Asan Sertifikat Xidmətləri Mərkəzinə (ASXM) fiziki olaraq müraciət etməli olacaqdır.

"Asan İmza" xidmətindən fiziki şəxslər (vətəndaşlar), hüquqi şəxslər və sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər, dövlət qulluqçuları və özünüidarəetmə orqanlarının nümayəndələri istifadə edə bilərlər. İlk dəfə bu xidməti aktivləşdirmək üçün abunəçilər şəxsiyyət vəsiqələri ilə Bakcell Müştəri Xidmətləri Mərkəzlərindən birinə müraciət etməli və burada "Asan İmza" xidmətini aktivləşdirərək "Asan İmza" SİM kartını əldə etməlidirlər.

Daha sonra isə SİM kartda Asan İmza sertifikatlarını aktivləşdirmək üçün Dövlət Vergi Xidmətinin Asan Sertifikat Xidmətləri Mərkəzinə (ASXM) müraciət olunmalıdır. Qeyd edək ki, "Asan İmza" mobil elektron imzanın texniki operatoru "B.EST Solutions" şirkətidir.

# "Nar" Qaxda yenilənmiş mağazasını təqdim etdi Ⓡ




**"Nar" paytaxtla yanaşı regionlarda da mərkəzlərini yeniləməklə müştərilərinə tam yeni satış və xidmət təcrübəsi təqim etməyə davam edir.**

Mobil operator Qax şəhəri H. Əliyev prospekti 346 ünvanında yerləşən mağazasını yeni konseptə uyğunlaşdıraraq, müştərilərin ixtiyarına verib. Qeyd edək ki, "Nar" mağazasında ziyarətçilərə nömrələrin satışı, bərpası, eyni zamanda dublikatının çıxarılması da daxil olmaqla, müxtəlif növ xidmətlər təqdim edilir. Yenilənmiş "Nar" mağazasında, həmçinin mobil telefonların, müxtəlif cihazların və aksesuarların satışı da həyata keçirilir. Bir sözlə, yenilənmiş "Nar" mağazasında müştərilərin müasir üslubda məlumat və xidmət alması təmin edilib.

Qeyd edək ki, "Nar" abunəçilərinə üstün və fərqli müştəri xidməti təcrübəsi təqdim etmək məqsədilə, mağazalarında yeni konseptin tətbiqini bütün ölkə boyu davam etdirməkdədir. Mobil operatorun paytaxt və regionlar üzrə yeni konsepsiyada təqdim etdiyi mağazalarının sayı 24 olub. Sizə yaxın olan satış və xidmət mərkəzlərinin ünvanları haqqında ətraflı məlumatı nar.az/map internet səhifəsindən öyrənə bilərsiniz.

## GÜNÜN FOTOSU




Yeni 20 qəpik belə olacaq...

## Bu, qaliblə məğlubun eyniləşdirilməsidir

**Turan Rzayev,**
politoloq

Azərbaycan Ermənistanı sülhə məcburetmə əməliyyatına başlaya bilər...

▸▸ Səh. 3

## STATİSTİKA



■ ABŞ-da 2,2 milyon nəfər həbsdədir, ümumilikdə dünya əhalisinin 5 faizi və dünyadakı bütün məhbusların 25 faizi bu ölkədə yaşayır yaşayır.

■ Papua Yeni Qvineyanın rəsmi dili ingilis dili olsa da, əhalinin cəmi 2 faizi bu dildə danışır. Ölkədə 820 dil mövcuddur.

■ Nauru əhalisinin 95 faizi artıq çəkidən əziyyət çəkir. Bu statistikayla ada ölkəsi dünyada ilk yerdə dayanır.



▸▸ Səh. 7

# Narkomanların 45 faizi qadınlar və uşaqlardır